Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

8 OKTYABR 2019-cu il
№ 179 (4077)
Qiyməti 40 qəpik

www.baki-xeber.com

Həftədə 5 dəfə çıxır
Qəzet 2003-cü ildən nəşr olunur


# RUSİYA İLƏ AZƏRBAYCAN YENİ SİLAH-SURSAT SAZİŞİ İMZALAYA BİLƏR - «VALDAY» KLUBUNDA AÇILAN PERSPEKTİV...

■ səh. 3 ■


İlham Əliyevin dəqiq cavabına obyektiv reaksiya verən erməni saytını paşinyançılar dağıtdı... ■ səh. 5 ■

Rusiya Qərbin sanksiyaları altında, Azərbaycan bu ölkə ilə strateji münasibətləri dərinləşdirə bilir - Azərbaycan üçün fədakarlıq nümunəsi... ■ səh. 8 ■

Azərbaycan Ermənistanın "İran ümidlərinin" üzərindən birdəfəlik xətt çəkdi - Şimal-Cənub dəhlizi... ■ səh. 10 ■

Azərbaycan-Rusiya strateji tərəfdaşlığı regionun taleyində hansı rolu oynayır... ■ səh. 3 ■

Əli Kərimlinin radikal dəstəsi Bakının mərkəzində icazə verilmiş aksiyanı da qarşıdurma səhnəsinə çevirmək istəyir ■ səh. 7 ■

Azərbaycanda islahatlara beynəlxalq reytinq qurumlarından yüksək qiymət dəstəyi... ■ səh. 11 ■

ABŞ bir neçə min İŞİD-çi əsiri Suriyanın şimalında buraxaraq geri çəkilir... ■ səh. 12 ■

Polis vətəndaşların "102" müraciəti üzrə tamam fərqli iş praktikasına başlayır ■ səh. 4 ■




## Qondarma «Artsax XİN» Avropa Şurasının Baş katibinə açıq böhtan atdı - Buriç, əslində, nə deyib...

■ səh. 5 ■



BMT sessiyasından İrəvan sammitinə, oradan «Valday» klubuna - dünya Ermənistanın diplomatik məğlubiyyətindən danışır... ■ səh. 9 ■

ABŞ ermənilərinin konqresi Heydər Əliyevin adından görünməmiş yalan məlumat yaydı ■ səh. 6 ■



Rafael Cəbrayılov «məni bu fəlakətə salanlar» deyəndə kimi nəzərdə tutdu... ■ səh. 7 ■

■ səh. 2 ■ Daxili işlər naziri Vilayət Eyvazov Qubada Daxili Qoşun əsgərləri ilə görüşdü - "...dövlətçiliyin cinayətkar qəsdlərdən qorunmasında..."



■ səh. 4 ■ Gördüyü, bildiyi cinayətləri xəbər verənlər daha polisə çağırılmayacaqlar... Əvəzində nə baş verəcək...



■ səh. 6 ■ Rusiya-Azərbaycan strateji tərəfdaşlığı zamanın hansı sınaqlarından çıxıb...



■ səh. 13 ■ Azərbaycanda Rusiyanın, Rusiyada Azərbaycanın milyardlarla dollar investisiyası...



■ səh. 14 ■ Bakıda zibil qutuları binaların beş addımlığında, heç vaxt dezinfeksiya olunmur...



## Prezident İlham Əliyev rusiyalı həmkarı Vladimir Putinin ad gününü təbrik etdi

**Oktyabrın 7-də Prezident İlham Əliyev Rusiya Prezidenti Vladimir Putinə zəng edib.**

Dövlət başçısı Vladimir Putini ad günü münasibətilə səmimi qəlbdən təbrik edib, ona Rusiya dövlətinin və xalqının tərəqqisi naminə prezidentlik fəaliyyətində yeni-yeni uğurlar və möhkəm cansağlığı arzulayıb.

Prezident Vladimir Putin göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.

Dövlət başçıları bu yaxınlarda keçirilən "Valday" Beynəlxalq Diskussiya Klubunun növbəti iclasının əhəmiyyətinə toxunaraq, Soçidə ölkə başçıları arasında aparılan danışıqların strateji tərəfdaşlığa əsaslanan ikitərəfli dostluq münasibətlərimizin daha da inkişaf etdirilməsi işinə töhfə verdiyini vurğulayıb, əlaqələrimizin bundan sonra da genişlənəcəyinə və möhkəmlənəcəyinə əminliklərini ifadə ediblər.

Söhbət zamanı Prezident İlham Əliyev və Prezident Vladimir Putin ikitərəfli münasibətlərimizin daha da inkişaf etdirilməsi ilə bağlı və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

## Avropanın ikinci böyük aviaşirkəti Bakını "ayın şəhəri" seçdi

**Almaniyanın aparıcı, Avropanın isə ikinci böyük aviaşirkəti olan "Lufthansa" Bakını "ayın şəhəri" elan edib. Dövlət Turizm Agentliyindən "Trend"ə verilən məlumata görə, aviaşirkət Azərbaycanı "Odlar yurdu", Bakının gecə mənzərəsini isə hər zaman hərəkətdə olan, alovlanan şəhərə bənzədib.**



Bakını Cənubi Qafqazın ən böyük şəhəri, Xəzər dənizinin qiymətli incisi adlandıran aviaşirkət dənizkənarı bulvar ərazisinə də xüsusi toxunaraq, bu ərazinin insanları bir-birinə yaxınlaşdıran və mehribanlaşdıran məkan adlandırıb.

Aviaşirkət öz səhifəsində İçərişəhəri bir labirintə bənzədib. Yeni və köhnə memarlıq abidələrinin Bakıya xüsusi bir gözəllik verdiyini, Şərqlə Qərbin sintezini yaratdığını deyib. Heydər Əliyev Mərkəzini isə Azərbaycan cəmiyyətinin müasirləşməsinin simvolu kimi dəyərləndirib.

Avropa ilə Asiya arasında yerləşən Bakını məşhurlaşan meqapolis adlandıran "Lufthansa" öz müştərilərini Azərbaycana gəlməyə dəvət edib.

Qeyd edək ki, Avropanın ikinci böyük aviaşirkəti olan "Lufthansa" hər ay öz füsunkarlığı ilə seçilən bir şəhəri ayın şəhəri elan edir. Bu yolla həmin şəhərləri turizm potensialını nümayiş etdirmək üçün geniş imkanlar yaradılır.

## Müəllimlərdən pul tələb edən Kəlbəcər məktəbinin direktoru vəzifəsindən azad edildi

**Sosial şəbəkələrdə müəllimlər arasında pul bölgüsü aparması ilə bağlı barəsində məlumatlar yayılan Kəlbəcər rayonunun 108 nömrəli tam orta məktəbinin direktoru vəzifəsindən azad edildi.**

Təhsil Nazrliyindən "Trend"ə verilən məlumata görə, bir neçə gün öncə Suraxanı rayonunda yerləşən Kəlbəcər rayonu 108 nömrəli tam orta məktəbin direktorunun müəllimlər arasında pul bölgüsü aparması ilə bağlı kütləvi informasiya vasitələrində və sosial şəbəkələrdə məlumatlar yayılıb.

Oktyabrın 7-də Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva və nazirliyin digər struktur bölmə rəhbərləri məsələnin yerində araşdırılması üçün qeyd olunan təhsil müəssisəsində olublar. Araşdırmanın nəticəsinə əsasən, məktəbin direktoru Bəsti Hüseynova dərhal vəzifəsindən kənarlaşdırılıb.

Məlum olub ki, Kəlbəcər Rayon Təhsil Şöbəsinin 20 iyun 2019-cu il tarixli müraciətinə əsasən, bu təhsil müəssisəsinin yerləşdiyi binanın qəzalı vəziyyətdə olduğu nəzərə alınaraq, yeni məktəbin tikintisi müddətində tədris prosesinin başqa binada aparılmasına icazə verilib. Avqustun 9-da Təhsil Nazirliyi tərəfindən təklif olunan binaya baxış keçirilib və məktəbin həmin binada yerləşdirilməsi razılaşdırılıb. Binanın daşınma və icarə haqqı xərclərinin isə dövlət vəsaiti hesabına maliyyələşdirilməsi barədə qərar qəbul olunub. Buna baxmayaraq, məktəbin direktoru Bəsti Hüseynova təhsil müəssisəsinin icarə haqqının ödənilməsi adı ilə müəllimlərdən vəsait toplanması üçün göstəriş verib. Məsələ ilə bağlı araşdırma davam edir.

# Prezident Əliyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibini qəbul edib



**Prezident İlham Əliyev oktyabrın 7-də Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibi Bağdad Amreyevi qəbul edib.**

Qonağı salamlayan Prezident İlham Əliyev deyib:

- Son illərdə əməkdaşlığımızın coğrafiyası genişlənir. Bizim üçün çox xoşdur ki, qardaş dövlətlər təşəbbüslərimizə qoşulur. İndiki sammit yubiley sammiti olacaq. Azərbaycanın qədim şəhəri olan Naxçıvanda 10 il əvvəl biz Əməkdaşlıq Şurasının yaradılması ilə bağlı qərar qəbul etdik. Mən bu mühüm qərara gətirib çıxaran bütün məqamları təfərrüatı ilə xatırlayıram. Siz bilirsiniz ki, Azərbaycan qardaş dövlətlərin başçılarını ilk dəfə deyil ki, qəbul edir. Buna görə də əminəm ki, həm təşkilati tərəfi, həm də məzmun cəhəti yüksək səviyyədə olacaq. Bu mühüm tədbir ərəfəsində biz sizinlə sammitə hazırlıqla bağlı son məqamları müzakirə etməliyik ki, tədbir uğurla keçsin və bizim ölkələri daha da sıx birləşdirsin.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibi Bağdad Amreyev deyib ki, Azərbaycan, ümumiyyətlə, türk birliyi prosesində xüsusi yer tutur. Məhz Azərbaycan torpağı Naxçıvanda razılaşma imzalanıb:

- Məhz Bakıda, Azərbaycan torpağında siz yubiley sammitini qəbul edirsiniz. Artıq 10 ildir ki, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası fəaliyyət göstərir. Həmin 10 il bir növ təşəkkül dövrü olub. İndi bu dövrü Sizin siyasi iradəniz, türk birliyinin formalaşması üzrə verdiyiniz mühüm qərarlar sayəsində başa çatdırmışıq. Biz təşəkkül, təsisat dövrünü başa vurmuşuq. İndi isə biz yeni mərhələyə - artıq böyük inteqrasiya mərhələsinə keçirik.

# Daxili işlər naziri Vilayət Eyvazov Qubada Daxili Qoşun əsgərləri ilə görüşdü - "... dövlətçiliyin cinayətkar qəsdlərdən qorunmasında..."



**Daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov oktyabrın 5-də DİN-in Daxili Qoşunlarının Quba rayonunda yerləşən hərbi hissəsində olub.**

DİN-in Mətbuat xidmətindən "Bakı Xəbər"ə verilən məlumata görə, qarşılanma mərasimindən sonra hərbi hissənin qərargahında "Şərəf kitabını" imzalayan nazir əsgər və hərbi qulluqçuların kazarma-məişət şəraiti, qidalanması, sağlamlıq durumu ilə maraqlanıb, həmçinin maddi-texniki təminatı, avtomobil və zirehli texnika parkı, ərazidə aparılan abadlıq-quruculuq işləri ilə yaxından tanış olub.

Sonra sıra meydanında əsgər və hərbi qulluqçular qarşısında çıxış edən Daxili işlər naziri V.Eyvazov yaxın tariximizə qısa ekskurs edərək müstəqilliyin ilk illərində Azərbaycanın qarşılaşdığı problemlər, torpaqlarımızın işğalı, ulu öndərin ali hakimiyyətə qayıdışından sonra ölkə həyatının bütün sahələrində, o cümlədən daxili işlər orqanlarında aparılan islahatlar, cinayətkarlıqla mübarizə və ictimai asayişin qorunması sahəsində əldə edilmiş müsbət nəticələr barədə məlumat verib.

Prezident İlham Əliyevin respublika Daxili İşlər Nazirliyinin və onun ayrılmaz hissəsi olan Daxili Qoşunların ictimai asayişin qorunmasında, cinayətkarlıqla mübarizənin səmərəli təşkilində, dövlətçiliyin cinayətkar qəsdlərdən qorunmasında, insan və vətəndaş hüquq və azadlıqlarının təminində müstəsna rolunu və fədakar xidmətini hər zaman yüksək qiymətləndirdiyini vurğulayan nazir, DİO-nun zəruri avadanlıq və texnika ilə təchizatına böyük diqqət yetirildiyini, məhz belə ali diqqət və qayğı sayəsində bu gün Daxili İşlər Nazirliyi, onun öncül qurumlarından olan Daxili Qoşunların müasir tələblərə cavab verən texniki və xüsusi vasitələrlə təmin olunduğunu, şəxsi heyətin iş, eləcə də sosial-məişət şəraitinin ilbəil daha da yaxşılaşdığını bildirib.

Nazir onu da qeyd edib ki, bu gün ölkəmizdə demokratik prinsiplər əsasında insan hüquqlarının təmin olunması, qorunub-saxlanılması istiqamətində mühüm işlər görülür. Vətəndaş məmnunluğunun yüksək səviyyədə təmin edilməsi məqsədilə ölkə rəhbərliyinin dövlət qurumları, o cümlədən Daxili İşlər Nazirliyi qarşısında qoyduğu konkret vəzifələrə uyğun olaraq, müvafiq qərarlar verilir, Nazirliyin rəhbərliyi tərəfindən respublikanın şəhər və rayonlarında vətəndaşlar qəbul edilir, onların hər bir müraciəti üzrə lazımi tədbirlər görülür, qaldırılan məsələlərin əksəriyyəti yerindəcə həllini tapır.

Şəxsi heyətə tapşırıq və tövsiyələrini verən nazir Vilayət Eyvazov əmin olduğunu bildirib ki, daxili işlər orqanlarının əməkdaşları, o cümlədən Daxili Qoşunların hərbi qulluqçuları göstərilən ali diqqət və qayğıya cavab olaraq sabitliyin, əmin-amanlığın etibarlı qorunmasına, cinayətkarlıqla qətiyyətli mübarizə işinə öz nümunəvi xidməti ilə cavab verəcək, qarşıya qoyulan bütün vəzifələri bundan sonra da layiqincə yerinə yetirəcək, göstərilən ali diqqət və böyük etimadı xalqına, Vətəninə, dövlətinə və Prezidentinə sədaqətli xidməti ilə doğruldacaqdır. Sonda hərbi hissənin əsgər və hərbi qulluqçuları təntənəli marşın sədaları altında tribuna önündən keçiblər.

***Baki-xeber.com***

# Rusiya ilə Azərbaycan yeni silah-sursat sazişi imzalaya bilər - "Valday" klubunda açılan perspektiv...

## Üzeyir Cəfərov: "Belə bir ehtimal var və bu istisna olunmur"

**Məlum olduğu kimi, oktyabrın 3-də Soçidə Rusiya Prezidenti Putinlə görüşdən sonra Azərbaycan Prezidenti İlham Əliyev hərbi-texniki əməkdaşlığı davam etdirmək barədə razılığa gəldiklərini söyləyib. Prezident qeyd edib ki, Rusiya ilə Azərbaycanın 5 milyard dollarlıq müqaviləsi var, onlardan 3 milyard həcmində razılaşma artıq icra olunub:**



"Hərbi-texniki əməkdaşlıq fəal inkişaf edir. Bu gün biz bu istiqamətdə işi davam etdirmək barədə razılığa gəldik".

Ölkə başçısının sözlərinə görə, Rusiyadan texnika alınması çərçivəsində ölkələr arasında artıq imzalanmış kontraktların məbləği 5 milyard dollar təşkil edir: "Bunun 3 milyard dolları artıq reallaşıb. Dediyim kimi, biz bu istiqamətdə işi davam etdirmək niyyətindəyik".

Ümumilikdə, Rusiya ilə Azərbaycan arasında, bütün sahələrdə olduğu kimi, hərbi sahədə də əlaqələr mövcuddur və 2 ölkənin hərbi-texniki əməkdaşlığı strateji xarakter daşıyır.Ötən ayın sonunda Bakıda Azərbaycan və Rusiya arasında Hərbi-Texniki Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın iclasında da iki ölkə arasında hərbi-texniki sahədə əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri müzakirəyə çıxarılaraq, bu istiqamətdə münasibətlərin inkişaf etdiyi vurğulanıb. Tərəflər 2020-ci il üçün əsas fəaliyyət istiqamətlərini də müəyyən ediblər.

Müdafiə naziri Zakir Həsənovun Rusiya Federasiyasının Azərbaycandakı səfiri Mixail Boçarnikovla görüşündə də gələcəkdə hərbi, hərbi-texniki, hərbi təhsil sahələrində əlaqələrin uğurla inkişaf edəcəyinə əminlik ifadə olunub. Görünən odur ki, Rusiya ilə hərbi-texniki əməkdaşlıq yüksələn xətlə inkişaf edir.

O da məlumdur ki, Ermənistan zaman-zaman iki ölkə arasında sözügedən sahədə əməkdaşlıqdan narahat olub və hər zaman buna mane olmağa çalışıb. Ermənistanın müqavimət göstərməsinə baxmayaraq, Rusiya ilə Azərbaycan arasında hərbi-texniki əməkdaşlıq davam edir. Prezident İlham Əliyevin hərbi-texniki əməkdaşlığı davam etdirmək barədə razılığa gəldiklərini qeyd etməsi belə bir ehtimalla çıxış etməyə əsas verir ki, bu sahədə növbəti böyük saziş imzalana bilər. Yəni Rusiya ilə Azərbaycan yeni silah-sursat sazişi imzalaya bilər.

Maraqlıdır, bəs ekspertlər belə bir perspektivi necə dəyərləndirirlər?

*"Onların təklif etdiyi məhsulları bədnam qonşumuz olan Ermənistandan fərqli olaraq kreditlə almırıq"*

Məsələyə münasibət bildirən hərbi ekspert Üzeyir Cəfərov bunu istisna etmədi. Onun fikrincə, yeni silah-sursat sazişi imzalana bilər: "Belə bir ehtimal var və bu istisna olunmur. Çünki Azərbaycanla Rusiya arasında hərbi və hərbi-texniki sahədə əməkdaşlıq davam etdirilir. Bunda daha çox Rusiya tərəfi maraqlıdır. Ona görə ki, Rusiya Azərbaycanı real alıcı kimi görür. Azərbaycanın maliyyə imkanları ilbəil müdafiə və təhlükəsizlik sahəsində artır. Onlar da görürlər ki, Azərbaycan real alıcıdır. Onların təklif etdiyi məhsulları bədnam qonşumuz olan Ermənistandan fərqli olaraq kreditlə almırıq. Yəni tərəflər arasında danışıqlar aparılır və ona uyğun olaraq razılıq əldə olunur. Əlbəttə ki, 2019-2020-ci illərdə Azərbaycanla Rusiya arasında hərbi və hərbi-texniki əməkdaşlıq davam etdiriləcək. Ötən ay Azərbaycan müdafiə nazirinin maddi-texniki təminat işləri üzrə müavini general-leytenant Fuad Məmmədovla Rusiya rəsmisi arasında 2019-2020-ci illər arasında görüləcək işlərlə bağlı hökumətlərarası protokol imzalanıb. Bu o deməkdir ki, hərbu sahədə birgə əməkdaşlıq davam etdiriləcək. Bütün bunlarla yanaşı, Prezident İlham Əliiyev "Valday"da çox önəmli mesajlar səsləndirdi. Sözsüz ki, bütün bunlar Ermənistanı narahat edir. Ancaq onlar Azərbaycanın Rusiya ilə hərbi-texniki sahədə əməkdaşlığına mane ola bilməyəcəklər. Azərbaycan özünə lazım olan silahları alacaq. Çünki Azərbaycan müstəqil dövlətdir və öz siyasətini yeridir. O siyasətə uyğun da lazım olan addımları atır. Ən azından, Rusiya Azərbaycanla hərbi əməkdaşlıqdan məmnundur".

***Vidadi ORDAHALLI***

# Azərbaycan-Rusiya strateji tərəfdaşlığı regionun taleyində hansı rolu oynayır...

## Elman Nəsirov: "İki ölkə arasında strateji tərəfdaşlıq münasibətlərinin inkişafı regional sabitliyə, inkişafa töhfə verir"

**Azərbaycan-Rusiya münasibətləri strateji xarakter daşıyır və zamanın sınağından çıxıb. Bizim Rusiya ilə münasibətlərimiz hər hansı xarici siyasi gündəlikdən azaddır. Bu münasibətlər zamanın sınağından çıxıb. Bu fikirləri oktyabrın 3-də Prezident İlham Əliyev Soçi şəhərinə səfəri zamanı "Valday" Beynəlxalq Diskussiya Klubunun iclası ərəfəsində Rusiyanın "Rossiya" televiziya kanalına müsahibəsində deyib.**




Ölkə başçısı bununla bağlı bir sıra məqamlara toxunub: "Hər iki tərəf bu münasibətləri strateji tərəfdaşlıq münasibətləri adlandırır. Bu, həqiqətən də belədir. Çünki biz həm qonşuyuq, həm də mehriban dostlarıq. Son vaxtlar bizim münasibətlərimiz xeyli səmərəli və keyfiyyətli olub. Biz həm beynəlxalq meydanlarda əməkdaşlıq edir, həm də bir-birimizi dəstəkləyirik. Deməliyəm ki, AŞPA-nın iyun sessiyasında Rusiya nümayəndə heyətinin qayıdışı məsələsi həll olunarkən, Azərbaycan nümayəndə heyəti tam tərkibdə Strasburqda Rusiyanın Avropa Şurası Parlament Assambleyasına qayıtmasına səs verməmişdi. Biz, həmçinin, BMT, ATƏT, təbii ki, MDB məkanında sıx qarşılıqlı fəaliyyət göstəririk, çox sıx ticari-iqtisadi münasibətlərimiz mövcuddur. Bu il əmtəə dövriyyəsi 20 faizdən çox artıb. Rusiyadan Azərbaycana, Azərbaycandan Rusiyaya çoxmilyardlı investisiyalar qoyulur. Energetika, nəqliyyat, humanitar, hərbi-texniki və turizm sahələrində əməkdaşlıq edirik. Müstəqil xarici siyasət kursu yeridən ölkə kimi Azərbaycan Rusiyanı mühüm tərəfdaşlardan biri, mehriban dost, qonşu hesab edir. Prezident Putinlə bugünkü görüş bunu bir daha təsdiq etdi".

Görünən odur ki, Rusiya-Azərbaycan strateji tərəfdaşlığı getdikcə inkişaf edir. Bu da hər iki ölkənin maraqlarına uyğundur. Bütövlükdə, Rusiya-Azərbaycan strateji tərəfdaşlıq maraqları regionun taleyində necə rol oynayır?

Məsələyə münasibət bildirən millət vəkili Elman Nəsirovun sözlərinə görə, iki ölkə arasında strateji tərəfdaşlıq münasibətlərinin inkişafı regional sabitliyə, inkişafa töhfə verir: "Əvvəla Prezident İlham Əliyevin Rusiya Prezidenti Vladimir Putinin dəvətilə "Valday" Beynəlxalq Diskussiya Klubunun 16-cı toplantısında iştirakı, orada səsləndirdiyi fikirlər artıq dünya mətbuatında çox ciddi müzakirə predmetinə çevrilib. Ölkə başçısının Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı qətiyyətli mövqe sərgiləməsi Azərbaycanın bir hökmlü davranşı kimi qarşılanır. Bu davranış, ilk növbədə, Azərbaycanın haqq işindən və beynəlxalq hüquqa söykənən addımlarından irəli gəlir. Bütün bunlarla yanaşı, Rusiya-Azərbaycan prezidentlərinin münasibətləri çox yüksək səviyyədədir. Gör münasibətlər necə yüksək səviyyədədir ki, onlar 4 ay ərzində görüşməmələrini pauza kimi qiymətləndiriblər. Hansı ki, diplomatik qaydalara görə, 4 ay elə də böyük müddət deyil. Eyni zamanda, qeyd olundu ki, bütün bunlara baxmayaraq, iki ölkə arasında əməkdaşlıq dinamik şəkildə inkişaf edir. Prezident İlham Əliyev qeyd etdi ki, Rusiyanın çox böyük sınaqlardan çıxmasında Putin faktoru həlledici rol oynayıb. Rusiya Prezidenti də İlham Əliyev barəsində xoş fikirlər səsləndirdi. Qeyd etdi ki, məhz Azərbaycan Prezidentinin ortaya qoyduğu gündəlik, nəticə etibarilə, bizim münasibətlərin indiki səviyyəsini təmin edib.

Bir sözlə, iki dövlət başçısı arasında səmimi dostluq münasibətləri, əlaqələrimizin strateji xarakteri, fundamental məsələlərdə ortaq mövqedən çıxış etməyimiz, iqtisadi və humanitar sahədə əlaqələrimiz regional sabitliyə, inkişafa töhfə verir.

Bu münasibətlər ikitərəfli əlaqələrin inkişafına xidmət etməklə yanaşı, həm də regionun taleyində mühüm rol oynayır. Bölgədə sabitliyin qorunmasına töhfə verir".

***Vidadi ORDAHALLI***

**Daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazovun imzaladığı növbəti əmr bu barədədir və əslində polis-vətəndaş münasibətlərində yeni atmosfer yaradacaq. Mahiyyət belədir: "102"-yə zəng vuraraq olay və ya cinayət barədə polisə məlumat verən şəxs ilkin ərizənin alınması üçün heç bir polis şöbəsinə çağırılmayacaq, ən yaxındakı polis məntəqəsinin əməkdaşları dərhal həmin vətəndaşın yaşadığı, ya olduğu yerə gələrək qanuni prosedura uyğun işlərini görəcəklər.**

# Gördüyü, bildiyi cinayətləri xəbər verənlər daha polisə çağırılmayacaqlar... Əvəzində nə baş verəcək...



Bəlkə kimlərəsə adi görünən bu yenilik bilirsinizmi nə qədər miqyaslı, təsirli hadisədir?! Uzaq sovet dövründən indiyədək gördüyümüz və əslində alışdığımız təcrübə bu idi ki, nə barədəsə milisə, polisə xəbər verənlər oturub izahat vermək üçün milis-polis idarəsinə dəvət olunacağı vaxtı gözləyirdi. Dəvət olunandan sonra isə baş verənlər heç də bütün hallarda həmin vətəndaş üçün xoş olan davamiyyətlə müşahidə olunmurdu. Vaxt itkisi,uzun-uzadı izahatlar, hətta bəzən həmin vətəndaşın özünü belə yersiz şübhələrin subyektinə çevirən suallar yaranırdı. Nəticədə bir çox hallarda vətəndaşlar şəxsən özlərinə aid olmayan hadisələrlə bağlı milisi-polisi məlumatlandırmağa o qədər də həvəsli olmur, ağrımaz başlarına duz bağlamamaq kimi meşşan və ictimai-dövlət maraqlarına uyğun olmayan mövqe tuturdular. Stalinin dövründən indiyə qədər qüvvədə olmuş bu iş üslubu əslində bir neçə istiqamətdə ziyanlı nəticələr verirdi. Birinci, hazırlanmaqda olan cinayətlərin qarşısını almaqda, baş vermiş cinayətin üstünü açmaqda milisin-polisin böyük dəstəkçisi olan ictimaiyyətin gücündən tam və səmərəli istifadə etməyə imkan vermirdi, nəticədə hüquq və asayiş mühafizəçiləri təklikdə işləmək zorunda qalırdılar. İkinci, dünyanın sivil ölkələri polis-vətəndaş işbirliyinin daha geniş miqyasda tətbiqinə nail olduqları halda bizlər bu mütərəqqi iş üslubunun imkanlarından yetərincə istifadə edə bilmirdik. Üçüncü və ən ümdəsi odur ki, nazirin yeni əmri polis-cəmiyyət münasibətləri kontekstində vətəndaş məmnunluğunun və vətəndaş rahatlığının daha geniş və real təcəssümünə tam şərait açır. Baxın, hansısa olaydan, cinayətdən xəbərdar olan vətəndaş bunu bildiyi üçün şöbədən şöbəyə, idarədən idarəyə çağırılmayacağını, vaxt itirməyəcəyini, əksinə, DİN orqanları ilə əməkdaşlıqdan ancaq rahatlıq duyacağını bəri başdan bilsə və əmin olsa, heç bir tərəddüd etmədən polisin işinə dəstək verəcək. Nazir Vilayət Eyvazovun bu əmri milyonlarla vətəndaşın polislə daha rahat, operativ və səmərəli əməkdaşlığı üçün misilsiz motiv mənbəyinə çevrilir. Əslində keyfiyyətcə yeni mərhələyə daxil oluruq - ölkədə qanunçuluq və ictimai təhlükəsizlik mühitinin daha da dərinləşdirilməsi üçün polisin aparıcılığı şəraitində cəmiyyətin və vətəndaşların iştirak payı xeyli artacaq, insanlar polislə daha həvəsli və daha rahat əməkdaşlığa gedəcəklər,həm də təkcə şəxsən özlərinə dəxli olmayan məsələlərdə də...geniş işbirliyinə meyllənəcəklər..Bildiyim qədər, Vilayət Eyvazov MDB məkanında ilk olaraq bu təcrübəni tətbiq edir və praktikada yalnız müsbət nəticələr verəcəyinə "100+" təminat var... Polis-cəmiyyət münasibətlərində vətəndaşların rahatlığını və məmnunluğunu artıran yeniliklər sırasında bu növbətisidir, bundan az əvvəl nazirin ictimaiyyətin diqqətini çəkən başqa əmrləri də olmuşdu. Belə ki,bir neçə həftə əvvəl nazir başqa bir əmrlə şəxsiyyət vəsiqələrinin verilməsində yenə də milyonlarla vətəndaşın maraq və mənafeyinə mübahisəsiz uyğun olan yenilik etdi - vətəndaşlar qeydiyat ünvanından asılı olmayaraq hər yerdə şəxsiyyət vəsiqəsini almaq və dəyişmək imkanı qazandılar. .Vətəndaşlar vəsiqə üçün bu rayondan o rayona getmək əzabından, izafi xərcdən və vaxt itkisindən xilas oldular. Nazirin hər kəsin mənafe və maraqlarına hardasa uyğun olacaq başqa bir əmrinə də toxunmaq lazım gəlir - piyadaların cərimələnməsi ləğv edildi. İlk dövrlərdə özünü doğruldan bu cərimə növü son zamanlar müəyyən ictimai narahatlıqlar yaratmağa başlamışdı. Bir müddət səmərəli işləyən bu cərimə mexanizmi özünün əsas hədəfinə yetişdi - polis yol hərəkət qaydalarının tək sürücülərə yox, həm də piyadalara aid olduğunu cəmiyyətin alt şüurunda oturda bildi. İşin bundan sonra qalan hissəsini maarifçi-təbliğatçılar da yerinə yetirə bilər. Vilayət Eyvazov nazir təyin olunanda onun DİN sistemində miras olaraq aldığı dəqiq və səmərəli idarəçilik üslubuna yeni mütərəqqi ənənələr gətirmək gücünə malik olduğuna inananlar kifayət qədər çox idi...İşdə bu da gözləntilərə uyğun ilk nəticələr..Eyni vaxtda həm Prezidentin etimadını təsdiqləyən, həm də ictimai məmnunluğu artıran addımlar ardıcıl və sistemli olaraq atılır... Yeni nazirin yeni idarəçilk ənənələri yaratmaq səylərinin davamını izləyək...."Yeni kadrlardan kimlər daha uğurlu nəticələrə yetişə bilir" sualının ən dəqiq cavabları da bu istiqamətdədir...

***Aydın QULİYEV***

**Xəbər verildiyi kimi, Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov cinayət və hadisələrlə bağlı məlumatlara baxılması işində operativliyin yüksəldilməsinə, xüsusən vətəndaş məmnunluğunun təmin edilməsinə xidmət edən daha bir əmr imzalayıb.**

# Polis vətəndaşların "102" müraciəti üzrə tamam fərqli iş praktikasına başlayır

*__Əliməmməd Nuriyev:__ "102" xidmətinin təkmilləşdirilməsi də şəffaflıq prosesinin artırılmasına səbəb olacaq"*



Əmrə əsasən, cinayətlər barədə "102" xidmətinə məlumat verən şəxslər fakt üzrə ilkin ərizənin alınması üçün polisə dəvət olunmayacaqlar. Bu qəbildən müraciətlərlə əlaqədar sənədləşdirmə onlar üçün rahat şəraitdə, yaşadıqları və ya olduqları ünvana gələn polis əməkdaşları tərəfindən aparılacaq.

Hər hansı bir şikayət və ya hadisə barəsində "102" xidmətinə zəng edənlər ərizə yazmaq üçün artıq polis bölməsinə çağırılmayacaqlar.

"102" xidməti ilə bağlı imzalanan əmri ölkə ictimaiyyəti müsbət qiymətləndirir.

"Konstitusiya" Araşdırmalar Fondunun sədri Əliməmməd Nuriyev "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, əvvəllər "102" xidmətinə zəng edib hər hansı bir hadisə haqqında məlumat vermək istəyəndə mütləq həmin şəxs polis məntəqəsində ərizə yazmalı idi. Artıq "102" xidmətinə zəng edənlər ərizə yazmaq üçün polis bölməsinə getməyəcəklər: "Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov tərəfindən "102" xidmətinə zəng edib şikayətini bildirən vətəndaşlarla bağlı əmr imzalandı.

**Əmrin mahiyyəti ondan ibarətdir ki, "102" xidməti vətəndaşlar üçün daha əlçatan olacaq. Eyni zamanda, bu əmr sayəsində vətəndaşlar əlavə vaxt itirməyəcəklər. "102" xidmətinə zəng edən şəxs hadisə barəsində dərhal məlumat verməklə yanaşı, həm də dəqiq məlumat verəcək".**

Həmsöhbətimiz onu da əlavə etdi ki, Daxili İşlər Nazirliyinin əməkdaşları ölkədə ictimai təhlükəsizliyin təmin olunmasında mühüm rola malikdirlər. "102" xidmətinin təkmilləşdirilməsi də şəffaflıq prosesinin artırılmasına səbəb olacaq.

**Bu əmr insan hüquq və azadlıqlarının daha etibarlı şəkildə qorunmasına yeni imkanlar yaradacaq: "102" xidmətinə edilən şikayətlə bağlı fakt qeydə alındıqda, zəruri olarsa, əməkdaşlar hadisə yerinə baxış keçirər".**

***Günel CƏLİLOVA***

Daxilində guya demokratiyanın olduğu ilə öyünən Ermənistanda növbəti qanusuzluq yaşanıb. Budəfəki vəhşilik media nümayəndələrinə qarşı törədilib. Erməni KİV-nin verdiyi məlumat görə, Ermənistan Konstitusiya Məhkəməsinin sədri Hrayr Tovmasyanın bacısı - Anjela Tovmasyan sahibi olduğu Hayeli.am ("Güzgü") saytında "Əliyevin Paşinyana gecikmiş, lakin güclü cavabı" başlıqlı məqalə dərc edib.

# İlham Əliyevin dəqiq cavabına obyektiv reaksiya verən erməni saytını paşinyançılar dağıtdı...



**Azər Həsrət:** *"Sevindiricidir ki, Ermənistanın içində İlham Əliyevin çıxışını Paşinyana verilən dərs kimi qiymətləndirən adamlar tapılır, hətta bunu yazırlar da"*

Bu məqaləyə görə, bir qrup Paşinyan tərəfdarı Anjela Tovmasyanı və onun qardaşını "anti-Qarabağ" mövqeyində ittiham edərək qəzetin redaksiyasına hücum təşkil edib. Onlar "Güzgü" mətbuat klubunun qapılarına yumurta atıb, plakatlar yapışdırıblar və bu media qurumunun bağlanmasını tələb ediblər.

Xatırladaq ki, Soçidə "Valday" Beynəlxalq Diskussiya Klubunun iclasının plenar sessiyasında iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev öz çıxışında erməni Baş nazir N.Paşinyanın bir neçə ay öncə Xankəndidə işlətdiyi "Qarabağ Ermənistandır və nöqtə" şüarına cavab olaraq "Qarabağ Azərbaycandır və nida işarəsi" deyib.

Ermənistanda mediaya edilən bu hücum faktı nəyin göstəricisi sayıla bilər?

Media eksperti Azər Həsrət "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, baş verən hadisə barədə məlumatlıdır: "Təbii ki, biz Ermənistanın daxilində baş verən prosesləri də yaxından izləyirik. Baş verən hadisə bizim uzun illərdir hətta beynəlxalq tribunalardan səsləndirdiyimiz fikirlərin doğruluğunu sübut edir. Bir daha əmin oluruq ki, Ermənistanda heç bir demokratiyadan söhbət gedə bilməz. Həmin adla nə varsa, fiksiyadan başqa nəsə deyil. Hakimiyyətdə kimin olmasından asılı olmayaraq, Ermənistanın daxilində azadlıqlardan söhbət gedə bilməz. İstənilən şəxs Ermənistanda hakimiyyətə gələndə çalışır ki, ilk olaraq, öz iradəsini xalq yeritsin. Bu hadisə də o qəbildəndir. İlham Əliyevin "Valday" klubundakı çıxışı həqiqətən bəyənilən idi. Bunu yalnız Ermənistan və Azərbaycanda deyil, dünyanın müxtəlif ölkələrində, xüsusən də keçmiş MDB məkanında yaxından izləyib, ətrafında müzakirələr aparıblar. Hətta deyərdim ki, həmin çıxış ciddi rezonansa da səbəb olub. Məlum çıxış həqiqətən də Paşinyanın cılız, yarımçıq fikirləri ilə müqayisə oluna bilməz. Ermənistanda az-çox ağlı başında olan adamlar bunu gözəl anlayırlar. Təbii ki, onların arasında bir qədər cəsarəti olan jurnalistlər də var. Onlar da bunu yazırlar. Paşinyan hakimiyyətinin əsl mahiyyəti budur. Üzə çıxır ki, sən demə, onun özündən əvvəlki dövlət başçılarını tənqid etməsi söz yığınından başqa nəsə deyilmiş. O daim deyirdi ki, həmin dövlət başçıları söz azadlığını boğublar. Baxın, görün özü nə edir? Bunu edən keçmişdə jurnalist olmuş şəxsdir. Bir tərəfdən də sevindiricidir ki, Ermənistanın içində İlham Əliyevin çıxışını Paşinyana verilən dərs kimi qiymətləndirən adamlar tapılır, hətta bunu yazırlar da".

***Məhəmmədəli QƏRİBLİ***

---

Erməni həyasızlığı və saxtakarlığı, həmişə olduğu kimi, bu dəfə də özünü göstərməkdədir. Ermənilər yenə də müəyyən məsələləri təhrif edərək buna özlərini şərik etməyə çalışırlar. Dağlıq Qarabağdakı separatçı qurumun "XİN" sözçüsü Ani Sarkisyan Avropa Şurasının Baş katibi Mariya Peyçinoviç Buriçin bu günlərdə qurumda etdiyi çıxışını şərh edib.

# Qondarma "Artsax XİN" Avropa Şurasının Baş katibinə açıq böhtan atdı - Buriç, əslində, nə deyib...



**Əli Orucov:** *"Tanınmadığı halda, separatçı qurumun guya hansısa konvensiyalara qoşulmağından söhbət belə gedə bilməz"*

O iddia edib ki, AŞnin Baş katibi Mariya Peyçinoviç Buriçin Parlament Assambleyasının payız sessiyasında səsləndirdiyi fikirləri separatçı qurum alqışlayır.

Buriçin fikrincə, yaşadığı dövlətlərin siyasi və ya hüquqi vəziyyətindən asılı olmayaraq, Avropa Şurası bütün vətəndaşların hüquqlarını qoruyur.

Separatçı qurum nümayəndəsi deyib ki, guya "Artsax" demokratik dəyərlərə sadiq qalarar insan hüquqlarının, təməl azadlıqların və qanunun aliliyinin qorunması sahəsində çalışıb. 1992-ci ildən bir sıra beynəlxalq konvensiyalara, o cümlədən İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Pakta, Beynəlxalq Mülki və Siyasi Hüquqlar haqqında Pakta və İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi üzrə Avropa Konvensiyasına qoşulub. Daha sonra qeyd edilib ki, separatçı qurum orada yaşayanların hüquq və azadlıqlarının beynəlxalq öhdəliklər çərçivəsində ardıcıl olaraq qorunması məqsədilə beynəlxalq təşkilatlarla, o cümlədən, Avropa Şurası ilə əməkdaşlığa hazır olduğunu dəfələrlə bəyan edib.

Göründüyü kimi, tipik erməni həyasızlığı və yalanı ortadadır. Hansı konvensiyalara qoşulmaqdan söhbət gedə bilər ki, Dağlıq Qarabağdakı separatçı qurumu heç bir dövlət, o cümlədən, beynəlxalq təşkilatlar tanımır? Məgər separatçı qurum BMT-də, Avropa təsisatlarında təmsil olunur? Buriçin məlum çıxışında səsləndirdiyi fikirlər müstəqilliyi tanınan və beynəlxalq birliklərdə təmsil olunan dövlətlərə aiddir.

*"...bütün bunlar ermənilərin yalan üzərində qurulan növbəti şousudur"*

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən AMİP funksioneri Əli Orucovun sözlərinə görə, bu, əslində, separatçı qurumun növbəti avantürasıdır: "Dünyanın gözünə baxa-baxa erməni separatçıları yalan söyləyir və hər vasitə ilə kimlərisə buna inandırmağa çalışırlar. Buriçin nəyinə lazımdır onun çıxışını Dağlıq Qarabağdakı separatçı qurum alqışlayır, yoxsa lənətləyir? Təbii ki, heç nəyinə. Nəzərə alınmalıdır ki, separatçı qurumu heç bir dövlət tanımır. Tanınmadığı halda, separatçı qurumun guya hansısa konvensiyalara qoşulmağından söhbət belə gedə bilməz. Ona görə də bu tamamilə ağ yalandır. Separatçı quruma hansısa qanunsuz səfərlərin edilməsi o demək deyil ki, qondarma rejim tanınıb. Yaxud da AŞ Baş katibinin hansısa çıxışı o demək deyil ki, bu, separatçılara da aiddir. Sadəcə, bu kimi yalan açıqlamalarla erməni separatçıları dünyadakı ictimai rəyi çaşdırmağa, kimlərisə inandırmağa çalışırlar.

Bu azmış kimi, Avropa Şurasının Baş katibinə böhtan ataraq onun səsləndirdiyi fikirləri özlərinə aid etməyə çalışırlar. Ancaq erməni separatçılarının bu yöndə fəaliyyəti uğursuzluğa məhkumdur. Ona görə də bütün bunlar ermənilərin yalan üzərində qurulan növbəti şousudur".

***Vidadi ORDAHALLI***

# ABŞ ermənilərinin konqresi Heydər Əliyevin adından görünməmiş yalan məlumat yaydı

**ABŞ-dakı "Hay Dat" Erməni Milli Komitəsi belə bir məlumat yayıb ki, guya Azərbaycanın mərhum prezidenti Heydər Əliyev üçtərəfli formatda danışıqların tərəfdarı olub. Amerika Erməni Milli Komitəsi bunu onunla əsaslandırmağa çalışır ki, ABŞ-ın sabiq prezidenti Bill Klinton ilə Azərbaycanın mərhum prezidenti Heydər Əliyev arasında 1 avqust 1997-ci ildə Oval kabinetdə keçirilən görüşdə bu məsələ müzakirə olunub.**



## *Fikrət Sadıqov: "Qarabağdakı separatçıların danışıqlarda tərəf kimi iştirak etməsi barədə deyilənlər həqiqətə uyğun deyil"*

Onlar iddia edirlər ki, guya baş tutan görüşdə sözügedən söhbəti ətraflı şəkildə əks etdirən məxfi sənədi Ağ Ev nəşr edib.

"Hay Dat"ın "Twitter" hesabında yayımladığı məlumatda deyilir ki, Heydər Əliyev separatçı qurumun Dağlıq Qarabağ münaqişəsinin həllində ATƏT-in himayəsi altında danışıqlarda tərəf kimi iştirak etməsinə qarşı olmadığı barədə maraqlı məlumatlar var. Daha sonra Heydər Əliyevin adından belə yazılıb: "Azərbaycan, Ermənistan və Dağlıq Qarabağ Minsk Qrupu prosesində birbaşa danışıqlarda təmsil olunur. Bunu davam etdirəcəyik..."

Məlum məsələdir ki, bu, ermənilərin növbəti uydurmasıdır. Ona görə ki, mərhum prezident Heydər Əliyev heç vaxt separatçı qurumun danışıqlarda tərəf olmasının tərəfdarı olmayıb. Danışıqlar Azərbaycanla Ermənistan arasında aparılıb. Heydər Əliyev böyük siyasətçi olaraq heç vaxt separatçı tərəfin danışıqlarda tərəf kimi iştirakına razı olmayıb.

Maraqlıdır, bəs ekspertlər bunu necə şərh edirlər?

### *"Heydər Əliyev heç vaxt belə bir fikir səsləndirməyib"*

Məsələyə münasibət bildirən keçmiş diplomat, politoloq Fikrət Sadıqovun sözlərinə görə, bu, ermənilərin növbəti uydurmasıdır: "Uydurmadır ona görə ki, onlar ardıcıllığı səhv salıblar. Məsələ ondadır ki, birinci mərhələdə işğal olunmuş torpaqlar azad edilməlidir. İkinci mərhələdə Dağlıq Qarabağın statusu ilə bağlı danışıqlar davam edir və müzakirə aparılır. Dağlıq Qarabağ o zaman danışıqlarda iştirak edə bilər ki, orada həm azərbaycanlı, həm də erməni icması tərəf kimi iştirak etsin.

O da yalnız sözügedən şərtlər daxilində mümkündür. Ona görə də Dağlıq Qarabağdakı separatçıların danışıqlarda tərəf kimi iştirak etməsi barədə deyilənlər həqiqətə uyğun deyil.

O üzdən, bunu ciddi və eyni zamanda, düzgün qəbul etmək mümkün deyil. Heydər Əliyev heç vaxt belə bir fikir səsləndirməyib. Ona görə ki, o, kifayət qədər müdrük və təcrübəli dövlət xadimi idi. Bu baxımdan deyilənlər həqiqəti əks etdirmir".

***Vidadi ORDAHALLI***

# Rusiya-Azərbaycan strateji tərəfdaşlığı zamanın hansı sınaqlarından çıxıb...

**Məlum olduğu kimi, oktyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Soçi şəhərinə səfəri zamanı "Valday" Beynəlxalq Diskussiya Klubunun iclasında iştirak edib. Prezident İlham Əliyev iclas ərəfəsində Rusya mediasına da geniş müsahiblər verib, bu müsahibələrdə Rusiya-Azərbaycan münasibətlərinə toxunub.**



## *Elçin Mirzəbəyli: "Şübhəsiz ki, cənab Prezident uzun bir tarixi müddət ərzində Azərbaycan-Rusiya münasibətlərinin qarşılaşdığı ixtilafları nəzərdə tutub və bu ağır sınaqlardan hər iki dövlətin, xalqın üzüağ, alnıaçıq çıxdığını xüsusi olaraq vurğulayıb"*

Prezident İlham Əliyev qeyd edib ki, Azərbaycan-Rusiya münasibətləri zamanın sınaqlarından keçib: "...Bizim Rusiya ilə münasibətlərimiz hər hansı xarici siyasi gündəlikdən azaddır. Bu münasibətlər zamanın sınağından çıxıb. Hər iki tərəf bu münasibətləri strateji tərəfdaşlıq münasibətləri adlandırır. Bu, həqiqətən də belədir. Çünki biz həm qonşuyuq, həm də mehriban dostlarıq. Son vaxtlar bizim münasibətlərimiz xeyli səmərəli və keyfiyyətli olub. Biz həm beynəlxalq meydanlarda əməkdaşlıq edir, həm də bir-birimizi dəstəkləyirik" - deyə Prezident İlham Əliyev bildirib.

Azərbaycan-Rusiya münasibətləri hansı sınaqlardan keçib?

"Xalq cəbhəsi" qəzetinin baş redaktoru, tanınmış politoloq Elçin Mirzəbəyli "Bakı-Xəbər"ə mövzunu şərh edərkən qeyd etdi ki, iki ölkə arasındakı münasibətlərin dərin kökləri var və bu münasibətlər də zamanın sınağına tab gətirərək indiyə qədər özünü qoruya bilib. "Azərbaycan-Rusiya əlaqələri yalnız Sovet dövründə mövcud olan münasibətlərə söykənmir. Sovetlər dövründən əvvəllər də hər iki ölkə arasında müxtəlif sahələrdə sıx əlaqələr, münasibətlər mövcud olub. Bilirsiniz ki, Azərbaycan uzun müddət çar imperiyasının tərkibində olub. Bu dövrdən başlayaraq əlaqələr indiyədək davam edib. Doğrudur, bu sırada tarixin qara səhifələri də var, onun üzərindən keçmək olmaz. Bütün bunlara baxmayaraq, həmin dövrdən Azərbaycan və Rusiya arasında qarşılıqlı əlaqələr formalaşıb, münasibətlər qurulub. Azərbaycan ziyalıları Rusiyada təhsil alıblar, ölkəmizdə təhsil sisteminin qurulmasında, formalaşmasında Rusiya ziyalıları aktiv şəkildə iştirak ediblər. Bu baxımdan, təbii, Azərbaycan-Rusiya əlaqələrinin tarixi uzaq dövrlərə gedib çıxır.

Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra ağır durumda yaşadıq. Sonra isə SSRİ tərkibində birgə yaşadıq. SSRİ tərkibində yaşayan digər xalqlarla yanaşı, Azərbaycan xalqı da o dövrün siyasi repressiyalarına məruz qaldı. Azərbaycan Sovet İttifaqının tərkibində olarkən ümumi mənafelərə xidmət üçün müxtəlif addımlar atıb. İkinci Dünya Müharibəsində Azərbaycan xalqı da, Azərbaycan nefti də müharibədə qələbə əldə edilməsində müstəsna rol oynayıb.

### *"Azərbaycan və Rusiyanın ortaq maraqları var"*

Qeyd edim ki, dövlət müstəqilliyimizin ilk illərində Azərbaycan və Rusiya arasında soyuq münasibətlər yaranmışdı, amma bu uzun sürmədi. Ümummilli lider Heydər Əliyev hakimiyyətə gəldikdən sonra Azərbaycan-Rusiya münasibətlərində yenidən yaxınlaşmalar baş verdi və bu münasibətlərin hazırkı vəziyyətə gəlib çıxmasının əsası qoyuldu.

Şübhəsiz ki, bu münasibətlərin indiki mərhələyə qədəm qoymasında Azərbaycan Prezidenti cənab İlham Əliyevin və Rusiya Prezidenti Vladimir Putinin müstəsna xidmətləri var.

Hər iki ölkənin başçısı Rusiya mediasına xüsusi olaraq bildiriblər ki, Azərbaycan və Rusiya strateji əlaqələrə malikdirlər, dünyada və regionda baş verən prosesləri ortaq mövqedən, ortaq maraqlardan qiymətləndirirlər. Azərbaycan və Rusiyanın ortaq maraqları var. Bu aspektdən də şübhəsiz ki, cənab Prezident uzun bir tarixi müddət ərzində Azərbaycan-Rusiya münasibətlərinin qarşılaşdığı ixtilafları nəzərdə tutub və bu ağır sınaqlardan hər iki dövlətin, xalqın üzüağ, alnıaçıq çıxdığını xüsusi olaraq vurğulayıb" - deyə E.Mirzəbəyli qeyd etdi.

***İradə SARIYEVA***

# Rafael Cəbrayılov "məni bu fəlakətə salanlar" deyəndə kimi nəzərdə tutdu...

**Vətəndaşlardan külli miqdarda borc aldığına görə qalmaqala düşən və mövzu ictimailəşəndən sonra millət vəkilliyindən könüllü imtina edən R.Cəbrayılov yenə qalmaqalın mərkəzindədir. R.Cəbrayılov Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyevin onun həyat yoldaşının erməni olması haqqında səsləndirdiyi fikirlərə də sərt formada cavab verib:**



"Hər kəs bilir ki, Hafiz Hacıyev Azərbaycan siyasətinin klounudur. Düşünürəm ki, bunu bilməyən yoxdur. Təxminən üç il bundan əvvəl Hafiz Hacıyev Xalq artisti Aygün Kazımova və digər bəzi səhnə xanımları haqqında ağzına gələni danışmışdı. Həmin vaxt A.Kazımova ona tutarlı cavab vermişdi, H.Hacıyevin özü və arvadı haqqında təhqiramiz fikirlər demişdi. Əgər H.Hacıyevin bir damla namusu, qeyrəti olsaydı, o, bir daha bu söhbətə qayıtmazdı. Bilirsiniz, kişi kişi ilə vuruşar, amma kişi bu söhbətə qadını, ailəni qatmaz. Söhbət əsl kişidən gedir. Düşünürəm ki, son vaxtlar mənim başıma gələn bəlaların dirijoru həm də H.Hacıyevi maliyyələşdirir və buna görə də o, belə danışır. Mənim həyat yoldaşım əslən Yevlax rayonundandır. Onun nəslində belə erməni yoxdur və olmayıb. Amma mən buradan üzümü H.Hacıyevə tutub deyirəm: H.Hacıyev, sən ermənidən əmələ gəlmisən. Əgər sənin bir damla şərəfin, namusun, qeyrətin varsa, məni ver məhkəməyə və mənim vəkillərim tutarlı dəlillərlə sübut etsinlər ki, sən ermənidən əmələ gəlmisən. Cəsarətin varsa, məni ver məhkəməyə, gözləyirəm!".

***Samir Adıgözəlli:** "Etdiyi hərəkəti kiminsə üstünə atması da qəbuledilməzdir"*

R.Cəbrayılovun H.Hacıyevə verdiyi cavabda diqqətçəkən məqamlardan biri bu cümlə olub: "Düşünürəm ki, son vaxtlar mənim başıma gələn bəlaların dirijoru həm də H.Hacıyevi maliyyələşdirir və buna görə də o, belə danışır". Sanki R.Cəbrayılov özü ətrafında baş verən məsələdə kiminsə ona qarşı qurma qurduğunu iddia etmək istəyir. Yəni öz başına gələn bəlaları deputat vəsiqəsini kiminsə yanına girov qoyub, külli miqdarda pul götürüb qaytara bilməməsi ilə deyil, H.Hacıyevi maliyyələşdirən adamda axtarır. Hər halda, vurğunu məhz bu məsələyə qoymaqla R.Cəbrayılov özünün etdiyi günahları başqasının üstünə yükləmək niyyətini güdə bilərmi?

İctimai-Siyasi Proseslər və Beynəlxalq Əlaqələr Mərkəzinin rəhbəri Samir Adıgözəlli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, R.Cəbrayılov həmin hadisədən sonra gərək bir müddət proseslərdən kənara çəkilsin: "Belə çıxmasın ki, mən onu təhqir edənlərə də haqq qazandırıram. İctimai qınaq olmalıdır, amma heç kimi təhqir etmək olmaz. R.Cəbrayılov da bunu etməməlidir. Bu ritorikanı birmənalı olaraq pisləyirəm. Ancaq R.Cəbrayılovun etdiyi hərəkəti kiminsə üstünə atması da qəbuledilməzdir. Necə yəni, mənim başıma bu oyunu filankəs açdı? Sən bəyəm azyaşlısan ki, aldanasan? Səni kim məcbur edib ki, deputat vəsiqəni girov qoyasan? Bütün bunlar absurddur. Mən hesab edirəm ki, R.Cəbrayılov etdiyi utanc hərəkətdən sonra çıxıb mediada gündə bir söz danışmamalıdır. Onun etdiyi hərəkətə heç nə haqq qazandıra bilməz. Mən dünyanın çox ölkəsini gəzirəm. Bəlkə də heç yerdə deputata bu qədər hörmət qoyulmur. Dövlətimiz tərəfindən onlara kifayət qədər yüksək əməkhaqqı, imtiyazlar verilir. Bundan əlavə, sadə xalq da harada deputat görürsə, onu yuxarı başa keçirir. Bu hörmətin qabağında onlar nə edirlər? Birmənalı şəkildə millət vəkili satusundan sui-istifadə edib həm özlərinin, həm də mandatlarının adını rüsvayçı şəkildə batırırlar. Sizi əmin edirəm ki, R.Cəbrayılov kimi deputatlar yenə var. Bəzilərinin özləri, övladları ilə bağlı ortaya çıxan qalmaqalların şahidi olmuşuq. Müəyyən səbəblərdən hansılarsa məsuliyyətdən yayına biliblər. Ancaq bilsinlər ki, xalqın gözü tərəzidir. Qoy R.Cəbrayılov hadisəsi onlar üçün bir örnək olsun. Ola bilər ki, onlar bu aqibəti yaşamadı, ancaq əmin olsunlar, növbəti parlamentdə oturmağa xalqdan mandat ala bilməyəcəklər. Qısası, hesab edirəm ki, R.Cəbrayılovun məsuliyyətdən yayınmaq üçün kimlərinsə ünvanına atmacalar atması tam yersizdir. İnsan özünə bəraət axtarmaqdansa, səhvləri üzərində düşünüb, onlardan nəticə çıxarmağı bacarmalıdır. Bir daha qeyd edirəm ki, kimsə millət vəkilini məcbur edə bilməz ki, gedib külli miqdarda borc alsın. Bizim parlamentdə elə nüfuzlu deputatlar var ki, onların adı bu cür məsələlərdə niyə hallanmır? Çünki mandatın nə olduğunu gözəl bilirlər. R.Cəbrayılov fikirləşməlidir ki, yalnız özünə pislik etməyib, həm də bütöv bir dairədən ona verilən səslərə xəyanət edib. Bundan əlavə, yaxşı olardı ki, R.Cəbrayılov onu bu vəziyyətə saldığını iddia edən şəxsin adını açıq çəksin. Hər halda, o, sıradan bir adamı nəzərdə tutmur. O deməyibsə, mən kiminsə adını çəkməklə məsuliyyəti üzərimə götürə bilmərəm. Ancaq söhbətin kimdən getdiyini təxmini bilirəm".

***Məhəmmədəli QƏRİBLİ***

# Əli Kərimlinin radikal dəstəsi Bakının mərkəzində icazə verilmiş aksiyanı da qarşıdurma səhnəsinə çevirmək istəyir

**Məlum olduğu kimi, "Milli Şura" 8 oktyabr, saat 15:00-da Bakı Şəhər İcra Hakimiyyəti (BŞİH) qarşısında piket keçirəcək. Bir saata yaxın davam edəcək aksiyada "Milli Şura"nın 19 yanvar 2019-cu ildə keçirdiyi mitinqdən sonra ölkədə guya sərbəst toplaşmaq azadlığının məhdudlaşdırılmasına etiraz olunması nəzərdə tutulur.**




Qeyd edək ki, təşkilatçılar meriyanın piketə razılıq verməsini müsbət addım kimi qiymətləndirsələr də, sosial şəbəkələrdə bu aksiya ilə bağlı bəzi qanunsuz çağırışlar da səslənir. Belə ki, qanunla piketdə ən çoxu 50 nəfər iştirak etməli olduğu halda, "Milli Şura"nın bəzi üzvləri tərəfindən "müşahidəçi statusunda" aksiyada minlərlə insanın iştirak edəcəyi haqda fikirlər bildirilir. Üstəlik, sosial şəbəkələr üzərindən insanları kütləvi halda BŞİH-nin qarşısına dəvət edənlər də var.

Nəzərə alsaq ki, Bakı Şəhər Baş Polis İdarəsi (BŞBPİ) aksiyaya icazə verildikdən dərhal sonra piket zamanı hər hansı qanunsuzluğa yol veriləcəyi halda müvafiq tədbir görüləcəyi ilə bağlı təşkilatçıları xəbərdar edib, o halda bu kimi çağırışlar anlaşılan deyil. AXCP sədri Əli Kərimlinin özü də bəyan edib ki, bu piketin məqsədi daha kütləvi, dinc etirazlara şərait yaratmaqdan ibarətdir: "Hökumətə də, xalqımıza da mesajımız aydın və birmənalıdır. Ölkədə xalqımızın konstitusiya ilə müəyyən olunmuş sərbəst toplaşmaq azadlığına nail olmaq üçün istənilən fədakarlığı edəcəyik, mitinq keçirmək hüququmuzdan vaz keçməyəcəyik".

Əgər həqiqətən də bu piketin keçirilməsində məqsəd gələcəkdə daha kütləvi aksiyaların keçirilməsi hüququ əldə etməkdirsə, o zaman təxribat xarakterli çağırışlara nə ad vermək olar?

***Vüqar Rəhimzadə:** "Milli Şura" mitinq keçirməyə olan maneələrə etiraz edirsə, onda özü də gələcəkdə belə maneələrin yaranması üçün şərait yaratmamalıdır"*

"İki Sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə qəzetimizə açıqlamasında bildirdi ki, bununla müxalifətin iç üzü bir daha açılır: "Fikir verirsinizsə, icazə verməyəndə deyilər ki, hakimiyyət sərbəst toplaşma azadlığını məhdudlaşdırır. İcazə verəndə də belə təxribatlara əl atırlar. Əslində, mən şəhərin mərkəzində elə aksiyaların keçirilməsinin tərəfdarı deyiləm, hər zaman da buna qarşı çıxmışam. Bunların məqsədi tamamilə başqadır. İstəyirlər ki, əhalinin gur yerində asayişi pozsunlar, səs-küyə daha çox adam cəlb etsinlər. Bununla dinc sakinlərin, ətrafda yaşayanların hüquqları pozulur, onlara narahatlıq yaranır. Siz müxalifətin davranışlarına baxın. Piketin təşkilatçıları demir ki, bura 50 nəfərdən artıq adam gələ bilməz. Bu, qanunvericiliyin tələbidir. Niyə bunu tərəfdarlarına izah etmək istəmirlər? Əksinə, elektoratlarına çağırış edirlər ki, ora gəlsinlər, ancaq kənardan müşahidə etsinlər. Görürsünüzmü? Bu artıq siyasi cığallığın bir növüdür. Orada çoxlu sayda jurnalist olacaq. Onlar piketin gedişini canlı yayacaqlar. Yəni bunu internetdən də izləmək olar. Ancaq görürsünüz ki, təşkilatçılar tərəfdarlarını həmin yerdəki küçələrə çağırırlar. Deməli, məqsədləri tam başqadır. Ancaq bilsinlər ki, bütün təxribatların qarşısı qanunauyğun şəkildə alınacaq. Artıq təşkilatçılara bu barədə rəsmi xəbərdarlıq da olunub. Bu məsələdə əsas məsuliyyət təşkilatçıların üzərinə düşür. Baş verəcək hər hansı təxribata görə məsuliyyəti onlar daşıyacaqlar. Əgər kimsə elektoratının çoxluğunu nümayiş etdirmək istəyirsə, buyursun, bunu icazəli mitinqlərdə etsin. Onda heç stadionu doldura bilmirlər. Dəfələrlə bunun şahidi olmuşuq. "Milli Şura" mitinq keçirməyə olan maneələrə etiraz edirsə, onda özü də gələcəkdə belə maneələrin yaranması üçün şərait yaratmamalıdır. Aksiyada baş verə biləcək hər hansı təxribata görə bütün məsuliyyəti təşkilatçılar daşıyacaq".

***Məhəmmədəli QƏRİBLİ***

# Rusiya Qərbin sanksiyaları altında, Azərbaycan bu ölkə ilə strateji münasibətləri dərinləşdirə bilir - Azərbaycan üçün fədakarlıq nümunəsi...

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Soçi şəhərinə səfəri zamanı "Valday" Beynəlxalq Diskussiya Klubunun iclası ərəfəsində Rusiyanın "Rossiya" və "Birinci" televiziya kanallarına müsahibə verib. Dövlət başçısına Azərbaycanın Rusiya ilə Qərb arasında necə balansı qoruya bilməsi ilə bağlı maraqlı sual verilib.**

"Məlum olduğu kimi, Azərbaycanın Qərb ölkələri ilə yaxşı münasibətləri var. Rusiya artıq bir neçə ildir sanksiyalar altındadır. Bu, Sizə Rusiya ilə əməkdaşlıq etməyə və bütün bu ikitərəfli layihələri inkişaf etdirməyə mane olmurmu?"

Ölkə başçısının bu suala cavabı belə olub: "Xeyr, qətiyyən mane olmur. Bizim Rusiya ilə münasibətlərimiz hər hansı xarici siyasi gündəlikdən azaddır. Bu münasibətlər zamanın sınağından çıxıb. Hər iki tərəf bu münasibətləri strateji tərəfdaşlıq münasibətləri adlandırır. Bu, həqiqətən də belədir. Çünki biz həm qonşuyuq, həm də mehriban dostlarıq. Son vaxtlar bizim münasibətlərimiz xeyli səmərəli və keyfiyyətli olub.

Biz həm beynəlxalq meydanlarda əməkdaşlıq edir, həm də bir-birimizi dəstəkləyirik. Deməliyəm ki, AŞPA-nın iyun sessiyasında Rusiya nümayəndə heyətinin qayıdışı məsələsi həll olunarkən, Azərbaycan nümayəndə heyəti tam tərkibdə Strasburqda Rusiyanın Avropa Şurası Parlament Assambleyasına qayıtmasına səs vermişdi. Biz, həmçinin, BMT, ATƏT, təbii ki, MDB məkanında sıx qarşılıqlı fəaliyyət göstəririk, çox sıx ticari-iqtisadi münasibətlərimiz mövcuddur.

Bu il əmtəə dövriyyəsi 20 faizdən çox artıb. Rusiyadan Azərbaycana, Azərbaycandan Rusiyaya çoxmilyardlı investisiyalar qoyulur. Energetika, nəqliyyat, humanitar, hərbi-texniki və turizm sahələrində əməkdaşlıq edirik.

Yeni əməkdaşlıq etmədiyimiz sahələrin adını çəkmək daha asandır. Buna görə bir daha demək istəyirəm ki, müstəqil xarici siyasət kursu yeridən ölkə kimi Azərbaycan Rusiyanı mühüm tərəfdaşlardan biri, mehriban dost, qonşu hesab edir. Prezident Putinlə bugünkü görüş bunu bir daha təsdiq etdi".



Göründüyü kimi, cənab İlham Əliyev heç bir üçüncü tərəfin münasibətlərindən asılı olmayaraq, Rusiya ilə ölkəmiz arasındakı münasibətlərin artan dinamika üzrə inkişafından ətraflı bəhs edib və bunun qısa izahını verib. Bu balansı qorumaq bizim üçün böyük nailiyyət sayıla bilərmi?

Politoloq Yeganə Hacıyeva "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, yürüdülən müdrik balanslı xarici siyasət nəticəsində bu gün Azərbaycan strateji Cənubi Qafqaz regionunda nüfuz və güc sahibi, qlobal güclər adlandırdığımız qütblərin hər ikisi ilə normal və xoşməramlı münasibətləri olan yeganə olkədir: "Bu regionun təhlükəsizliyinin təminatı və möhkəmləndirilməsi istiqamətində fəaliyyətimiz, Azərbaycan hökumətinin bu məsələlərdə göstərdiyi dayanıqlı səyləri hər iki qütb tərəfindən dəyərləndirilir və strateji mövzular ətrafında milli maraqlarımıza söykənən qərarlarımız hörmətlə qarşılanır və bununla hesablaşırlar.

Hər iki qütblə qarşılıqlı münasibətlərdə bu hesablaşmanı bəzən digər dövlətlərin qısqanclıqla bizə qarşı xüsusi imtiyaz olunur və ya jest edilir kimi dəyərləndirməsinə səbəb olan belə münasibətin bünövrəsini səmimi və güvənli əməkdaşlıq təşkil edir. Azərbaycan qarşılıqlı faydalılıq əsasında güvənli və səmimi tərəfdaşdır.

Bir reallıq var ki, son bir neçə əsrdə Cənubi Qafqazı nüfuz dairəsində saxlayan Rusiyasız bu regionun təhlükəsizliyini qurmaq, onunla hesablaşmadan istər regional, istərsə də lokal sabitlik əldə etmək mümkün deyil.

Rusiya-Azərbaycan münasibətləri siyasi, iqtisadi, mədəniyyət və təhlükəsizlik sahələri üzrə inkşaf edib. Rusiya Azərbaycanın əsas ticarət tərəfdaşlarındandır. Azərbaycandan qeyri-neft məhsullarının ixracı üzrə Rusiya birinci yerdədir.

Rusiya və Azərbaycan kənd təsərrüfatı, turizm, əczaçılıq, energetika sahələrində, iqtisadi münasibətlərin inkişafına xidmət edəcək infrastruktur layihələrini həyata keçirirlər.

Qarşılıqlı investisiya mühiti Azərbaycan tərəfindən Rusiya iqtisadiyyatına 1 milyard ABŞ dollarından çox, Rusiya tərəfindən isə Azərbaycan iqtisadiyyatına 4 milyard ABŞ dollarından çox investisiya yatırılması ilə ilbəil inkişaf edir.

Rusiya Azərbaycandan ərzaq məhsullarının alınmasında, Azərbaycan isə kənd təsərrüfatı məhsullarının iri Rusiya bazarına çatdırılmasında maraqlıdır.

Bu sahənin inkişafı üçün "Şimal-Cənub" dəhlizi və Samur çayı üzərində tikilən körpü nəqliyyat-tranzit qovşağı kimi əhəmiyyətlidir.

Rusiyada qeyri-rəsmi rəqəmlərə görə, 3 milyon nəfər azərbaycanlı yaşayır və işləyir.

Cənubi Qafqazda nüfuz sahibi gücləri xarakterizə etsək, birmənalı deyə bilərik ki, rəsmi Moskva öz maraqları çərçivəsində siyasət yürütsə də, daha güvənli tərəfdaşdır".

Ekspertin sözlərinə görə, dünyanın mövcud iqtisadi xəritəsində Yaxın Şərqdən sonra ikinci strateji region, qitələrarası qovşaq, tampon zona və keçid adlandırdığımız Cənubi Qafqazda konfliktlərin açarı rolunu oynayacaq, sistemli addımlar ata biləcək ölkə Rusiyadır: "Cənubi Qafqazın strateji ölkəsi, nüfuzlu iqtisadi, siyasi mərkəzi kimi Azərbaycan ancaq öz milli maraqlarına xidmət edən xarici siyasət həyata keçirir. İstər Rusiya, istərsə də ABŞ-la öz maraqlarımızın ətrafında qarşılıqlı faydalılıq əsasında əməkdaşlıq qurmuşuq.

Son illər AB və ABŞ tərəfindən tətbiq olunan sanksiyaların Rusiyanın ənənəvi tərəfdaşlarının ətrafında daha sıx birləşməsinə təkan verdi.

Bir neçə gündür "Valday" görüşü, Azərbaycan Prezident İlham Əliyevin uğurlu və parlaq çıxışının nəticəsi kimi Rusiyada ənənəvi ermənipərəst qruplar adlandırdığımız dairələr və şübhəli şəkildə onlarla eyni cəbhədə durmuş kimi müşahidə olunan ölkədaxili qrupların fəallaşmasını müşahidə edirik. Hər iki qrupun fəaliyyəti iki dövlət arasında münasibətləri kəskinləşdirmək, əlavə düşmən yaratmaq məqsədinə xidmət edir.

Rusiya Azərbaycanın bir nömrəli problemi - Qarabağ münaqişəsinin bilavasitə həlli ilə məşğul olan ATƏT-in Minsk Qrupunun həmsədrlərindən biridir. Günümüzün mövcud qlobal siyasi müstəvisində konfliktlərin həllində ordu və hərbi alətlərlə paralel və deyərdim hətta daha üstün uzaqgörən və manevrli siyasətin yürüdülməsi durur".

***Məhəmmədəli QƏRİBLİ***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# BMT sessiyasından İrəvan sammitinə, oradan "Valday" klubuna - dünya Ermənistanın diplomatik məğlubiyyətindən danışır...

**Dağlıq Qarabağ münaqişəsi ilə bağlı son günlərdə ən çox diqqət çəkən məqam, heç şübhəsiz, Prezident İlham Əliyevin "Valday" klubunda səsləndirdiyi "Qarabağ Azərbaycandır və nida" bəyanatıdır. Elə bundan irəli gəlir ki, sözügedən bəyanat təkcə Azərbaycanda yox, işğalçı Ermənistanda, eləcə də beynəlxalq arenada geniş müzakirəyə səbəb olub.**

İlk növbədə o baxımdan ki, dünya ictimaiyyətinin gözü qarşısında Ermənistanın baş naziri Nikol Paşinyanın həyasızcasına Qarabağın erməni torpağı olduğunu iddia etməsinə dair yalanları Azərbaycan dövlət başçısı tərəfindən tutarlı arqument və faktlarla tam şəkildə ifşa olundu. Özü də bu ifşa mühüm bir beynəlxalq tribunadan həyata keçirildi. Məhz elə bu səbəbdən İlham Əliyevin açıqlamaları işğalçı Ermənistanın özündə belə geniş rezonans doğurdu. Bunları erməni mediasının yazdıqlarından, ekspertlərinin səsləndirdiyi fikirlərdən də aydın sezmək olar.

Erməni mediasının yazdıqlarından belə bəlli olur ki, Paşinyan sərsəm bəyanatlarına görə "Valday" tribunasından olduqca sərt bir cavab alıb. Məsələn, "politik.am" portalı qeyd edir ki, Soçidə baş tutan "Valday" görüşü Ermənistan üçün bir sıra aspektlərdən ciddi zərbə meydançasına çevrilib: "Ermənistanda daxili siyasi mübahisələrin nizama salınmasına dair məsələlərlə məşğul olan həm ictimaiyyət, həm də ekspert-analitik dairələr bu günlərdə Soçidə baş verən mühüm bir hadisəni əldən verdilər. Söhbət prezident İlham Əliyevin də qatıldığı "Valday" klubunun XVI illik toplantısından gedir. Burada Rusiya və Azərbaycan prezidentləri Vladimir Putin və İlham Əliyevin görüşü baş tutub. İkitərəfli münasibətlər, o cümlədən hərbi-texniki əməkdaşlıq və Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə danışıqlar prosesi ilə bağlı açıqlamalar verilib. Xüsusilə diqqət çəkən məqam odur ki, Putin-Əliyev görüşü Avrasiya İqtisadi Birliyi Ali Şurasının İrəvan sammitindən və Rusiya prezidentinin toplantıda iştirak etmək üçün İrəvana işgüzar səfərindən dərhal sonra baş verir. Bu da, istər-istəməz, Qarabağ münaqişəsinin tənzimlənməsi cəbhəsində bəzi "irəliləyişlərin" baş verdiyini göstərir. Nə qədər təəssüf doğurucu olsa da, fakt budur ki, Azərbaycan bu il "Valday"da Cənubi Qafqaz tərəfindən təmsil olundu və Azərbaycan lideri olduqca maraqlı bir diplomatiya sərgilədi, xüsusən də gərginləşən Ermənistan-Rusiya münasibətləri fonunda əlamətdar olan Rusiya-Azərbaycan münasibətlərindən danışdı. Bunlar o vaxtda baş verir ki, son bir neçə gündür İrəvanda hakimiyyət və hakimiyyətyönlü dairələr Paşinyanın yalnız "Baqramyan 26" ünvanının girişində prezident Putinlə görüşdüyünü nümunə gətirərək, hazırkı Ermənistan baş nazirinin "ləyaqətli" və "qürurlu" duruşu barədə danışmaq fürsətini qaçırmırdı. Əlbəttə, onlar Ermənistanın İsveçrə, Cənubi Qafqazın isə Qərbi Avropa olmadığını unutdular. Unutdular ki, bu vəziyyətdə söhbət Ermənistanın təhlükəsizliyinin qarantı və Qarabağ münaqişəsinin nizamlanması prosesində əsas rol oynayan geosiyasi güc mərkəzinin rəhbərindən gedir. Əliyev İrəvanın bu səhvlərindən məharətlə istifadə edib Rusiya-Azərbaycan münasibətləri barədə siyasi bəyanatlar verərək, hərbi-texniki əməkdaşlıqda 5 milyard dollar olduğunu və hələ də olacağını xatırlamağı unutmadı. Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı Əliyevin bəyanatları da az nəzərəçarpan deyildi". Məqalədə vurğulanıb ki, Paşinyanın Qarabağda verdiyi açıqlamada "Qarabağ Ermənistandır, vəssalam" ifadəsi beynəlxalq aləmdə bir qədər gözlənilməz oldu və geniş işıqlandırıldı. Azərbaycan prezidenti isə "Valday"ın yüksək kürsüsündə bundan faydalandı. O, Paşinyanın çıxışını alt-üst elə bildi". Eyni mövqeni Ermənistan Konstitusiya Məhkəməsinin sədri Hrayr Tovmasyanın bacısı Anjela Tovmasyanın sahibi olduğu "hayeli.am" saytı da sərgiləyir. Saytın "Əliyevin Paşinyana gecikmiş, lakin güclü cavabı" başlıqlı məqaləsi də yuxarıda qeyd olunan fikirləri əks etdirir. Azərbaycanın Ermənistan üzərində növbəti diplomatik qələbəsini etiraf edən belə media orqanlarına qarşı isə Paşinyan hakimiyyəti, görünür, repressiv vasitələri işə salıb. Barəsində bəhs olunan "hayeli.am" saytının redaksiyasına təşkil edilən hücum da bunun təsdiqidir. Saytın rəhbəri Anjela Tovmasyan hesab edir ki, baş verənlər təzyiq göstərmək, onu və qardaşını qorxutmaq məqsədi daşıyır: "Bu, saytın və şəxsən mənim müxalif mövqeyimlə əlaqəlidir. Bu tamamilə mövcud hakimiyyətin üslubunda olan şeydir". Amma istənilən halda, təkcə media yox, erməni ekspertlər də Azərbaycanın gedişlərinin Paşinyan iqtidarı üçün ciddi problemlər yaratdığını etiraf edirlər. Məsələn, politoloq Anna Karapetyan bildirir ki, Paşinyanın Qarabağ münaqişəsinin nizama salınması prosesində addımlarının reallıqdan uzaq olması Azərbaycan tərəfindən uğurla ifşa olunur. Onun sözlərinə görə, Paşinyan vacib və konstruktiv yenilik kimi hər zaman bu tezis üzərində işləyir ki, münaqişənin həlli Ermənistan, Qarabağdakı rejim və Azərbaycan xalqları üçün məqbul olmalıdır: "Valday" müzakirə klubunda öz çıxışı zamanı Azərbaycan prezidenti Paşinyanın bu bəyanatına cavab verdi və qeyd etdi ki, onlar üçün məqbul həll Azərbaycanın ərazi bütövlüyü çərçivəsində olan həlldir. Yəni Bakı bu gün hər hansı güzəştlərə getmək niyyətində deyil və onun üçün məqbul həllə razı olub-olmayacağını Ermənistana buraxır. Belə vəziyyətdə Azərbaycanı dəstəkləyənlərin sayı artır. Hətta bu gün vasitəçilər artıq açıq mətnlə Ermənistanı qeyri-konstruktiv adlandırırlar. Bunun səbəbi "Qarabağ Ermənistandır, vəssalam" kimi hesablanmamış, populist bəyanatlardır. Bu, təhlükəsizlik də daxil olmaqla, bizim üçün ciddi problemlər yarada bilər".

Ermənistan parlamentinin sabiq deputatı Vardan Bostancyan da bildirir ki, ölkəsinin Rusiya ilə problemlərinin dərinləşdiyi bir vaxtda "Valday" klubunda baş verənlər Azərbaycan - Rusiya münasibətlərinin fərqli məcrada inkişaf etdiyini üzə çıxardı: "Bütün dünya Rusiya ilə əlaqələrdə özünü təmkinli saxlayır, lakin mən İrəvandakı Avrasiya İqtisadi Birliyi Ali Şurasının iclasında belə bir şey görmədim. Bu cür oyunlar ölkəmiz üçün təhlükəlidir. Paşinyan-Putin görüşünün "parlaq", "möhtəşəm" kimi şərh edilməsindən asılı olmayaraq, görüş çox kədərli idi. Halbuki, Əliyev-Putin görüşü tam fərqli bir atmosferdə keçdi". Digər erməni analitik Karen Bekaryanın da bu xüsusda fikirləri xüsusi diqqət cəlb edir: "Avrasiya İqtisadi Birliyinin sammitində iştirak edən Rusiya prezidenti hava limanından birbaşa iclasa gəlib və həm erməni-rus əlaqələrində uzun illərdir davam edən vəziyyəti, həm də digər iştirakçıların sammitə gəlmə saatını müqayisə etsək, görərik ki, burada hər şey normal deyil. Ermənistan və Rusiya rəhbərlərinin ikitərəfli görüşü ilə bağlı kifayət qədər maraqlı vəziyyət var. Rusiya prezidentinin səfəri zamanı erməni-rus əlaqələrində mövcud olan bir sıra problemlər bəlli oldu. Vladimir Putinlə Ermənistanın ikinci prezidenti Robert Köçəryanın həyat yoldaşı Bella Köçəryanın görüşü Moskvanın Paşinyan iqtidarına hansı münasibətdə olmasının real təzahürü oldu. Birincisi, görüş Rusiyanın suveren ərazisində baş tutur, bu, hansısa bir şeyi xatırladır yoxsa yox? İkincisi, baş nazirin mətbuat katibi Rusiya prezidenti ilə ikinci prezidentin həyat yoldaşının görüşündən xəbərdar olub-olmaması ilə bağlı verilən suala cavab verərkən bildirib ki, bu barədə hava limanında öz həmkarından məlumat alıb. Nə alınır? O alınır ki, Paşinyan iqtidarının mövqeyi heçə sayılır. Amma Azərbaycana münasibətdə Soçidə tam fərqli bir mənzərə qeydə alındı. Deməli, Paşinyanın səhvləri üzündən Rusiya-Azərbaycan yaxınlaşması yeni vüsət aldığı bir vaxtda Moskva-İrəvan münasibətlərində əks proses müşahidə olunur. Bunun nəticələri isə Ermənistan üçün yaxşı olmayacaq".

Baş verənlər fonunda Ermənistanın "1-in.am" saytı isə yazır: "Bir neçə gün əvvəl Rusiya prezidenti Ermənistana gəldi və Paşinyanla görüşdü. Amma buna paralel, yəqin ki, hakimiyyətin gözləmədiyi başqa bir görüş olub. Putin həbsdə olan və konstitusiya quruluşunu devirməkdə ittiham edilən ikinci prezident Robert Köçəryanın arvadı ilə görüşüb. Ermənistan mətbuatında dərc olunmuş bu məlumatı sonradan Kremlin mətbuat katibi Dmitri Peskov da təsdiqləyib. Habelə düz çıxıb ki, görüş Rusiyanın Ermənistan səfirliyində baş tutub. Parlamentin deputatı Yercanik Abqaryan hesab edir ki, Paşinyan-Putin görüşündən sonra rüsvayçı qalmaqal gəlib - Putin həbsxanada olan Robert Köçəryanın arvadı ilə görüşərək bununla da göstərib ki, Köçəryanı həbsə düşürən faktları nəzərə almır: "Demək istəyirəm ki, Nikol Paşinyan Rusiya prezidentinin səfərindən sonra hər şeyin yaxşı olduğunu bildirərkən göstərir ki, Putinin etdiklərini anlamır. Paşinyan Putinin qarşısında barmaqlarını şama döndərib yandırırsa, fərq etməz, Putin tərəfindən ona tabe olmayan antirusiya xadimi kimi qavranılır". Yercanik Abqaryan Vladimir Putin-Bella Köçəryan görüşünə üz tutaraq qeyd edib ki, bu, ağır cinayətlərdə ittihama görə həbsdə olan Robert Köçəryana dəstəkdir.

Özü də Paşinyanın ABŞ-dan əliboş döndüyü bir vaxtda bunlar baş verir: "Paşinyan ABŞ-a yollandı, BMT-nin mənzil-qərargahında çıxış etdi, amma bütün problem bundadır ki, Amerika administrasiyasının əsas fiqurları ilə görüşməyib. Xüsusən də ABŞ prezidenti Donald Trampla ikitərəfli görüş olmayıb, qalan görüşlər isə ikinci dərəcəli xarakter daşıyırdı. ABŞ prezidenti və ümumiyyətlə ABŞ onu soyuq qarşıladısa, deməli, hər şey aydındır. Onu da nəzərə almaq gərəkdir ki, Tramp indiki anda Rusiyaya qarşı ümumiyyətlə heç bir addım atmır. Və bu durumu gözə almaq gərəkdir".

Hazırkı vəziyyətdə isə Putinin davranışları Ermənistanın Rusiyanın da dəstəyindən məhrum olduğunu göstərir. Halbuki, bunlar fonunda Azərbaycan-Rusiya münasibətləri dinamik inkişaf edir və bunu Prezident İlham Əliyev "Valday" müzakirə klubunda xüsusi qabartdı. Rusiya-Azərbaycan münasibətlərinin belə inkişafı ilə Azərbaycan həm də Qarabağ münaqişəsinin həllini Moskvanın yardımı ilə tezləşdirmək istəyir. Hadisələr də elə buna doğru gedir.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Azərbaycan Ermənistanın "İran ümidlərinin" üzərindən birdəfəlik xətt çəkdi - Şimal-Cənub dəhlizi...

**Avrasiya İqtisadi Birliyinin (AİB) Ermənistanda keçirilən sammitindən sonra İrəvanın əsas niyyətlərindən biri qonşusu olan İranla iqtisadi əlaqələrin genişləndirilməsinə nail olmaq idi. Amma proseslərin gedişi Ermənistanın bu istiqamətdə də ümidlərinin puça çıxdığını göstərir.**

Özü də bunlar o fonda baş verir ki, İran Azərbaycanla əlaqələrini nəzərəçarpacaq dərəcədə intensivləşdirir.

İndilikdə belə görünür ki, qarşıdakı dövr ərzində, Ermənistanın istəklərinin əksinə olaraq, İran və Azərbaycan arasında iqtisadi müstəvidə əlaqələr daha da dərinləşəcək. İranın Şərqi Azərbaycan vilayətinin valisi Məhəmmədrza Purməhəmmədi də vurğulayır ki, İran Azərbaycanla bütün sahələrdə qarşılıqlı əməkdaşlıq əlaqələrinin inkişafında maraqlıdır. O bildirib ki, ötən il İranla Azərbaycan arasında ticarət dövriyyəsinin həcmində 74 faiz artım müşahidə edilib. Bu fakt iki ölkə arasında tranzit və yük daşınmaları, avtomobil istehsalı, səhiyyə və müalicə, kənd təsərrüfatı, texnologiya, elm və mədəniyyət sahələrində çox yaxşı əməkdaşlıq əlaqələrinin mövcudluğunu göstərir.

Vali xatırladıb ki, ötən 6 ildə prezidentlər səviyyəsində 12 görüş keçirilib: "İki ölkə arasında əlaqələrin səmimi xarakter daşıması təsadüfi deyil. İran və Azərbaycan arasında dərin tarixi, mədəni və dini bağlılıqlar var. Bütün sahələr üzrə davam edən əməkdaşlıq dostluq və qardaşlığa əsaslanır". Məhəmmədrza Purməhəmmədi onu da bildirib ki, İranın Şərqi Azərbaycan vilayəti Azərbaycanla həmsərhəddir: "Bu isə iqtisadi və ticarət əlaqələrinin genişlənməsi və əməkdaşlığın inkişafı üçün böyük imkanlar yaradır. Dövlətlərin həmsərhəd olması tranzit yükdaşımalar üçün imkan yaradır və bu imkandan istifadə etmək lazımdır. Bunun üçün hər iki ölkənin iqtisadi potensialı var". Qeyd edilənləri İranın Fermerlər Birliyinin Gilan vilayəti üzrə təmsilçisi Əli Dərcani də təsdiq edir. O, İranın, onun vilayətlərinin Azərbaycanla əməkdaşlığa indi xüsusi önəm verdiyini vurğulayır. Bunun ümdə səbəblərindən biri isə İran məhsullarının məhz Azərbaycan üzərindən dünya bazarlarına çıxışı üçün olduqca əlverişli şəraitin formalaşmasıdır: "Bunu Gilan vilayəti üzrə də aydın görmək olar. Bir neçə gündən sonra İranın Gilan vilayətindəki bağlardan subtropik meyvələrin yığımı və ixracı başlayacaq. Gilan vilayətinin coğrafi vəziyyəti əlverişli olduğu üçün yığılan məhsulun ixracı asandır. Bu vilayət Azərbaycanla həmsərhəddir və subtropik meyvələr Azərbaycan ərazisindən keçməklə Rusiyaya ixrac ediləcək. Cari ildə İranın Talış, Astara və Rudbar bölgələrinin bağlarında 180 min ton kivi yetişdirilib. Bu məhsulun 90 faizi Rusiyaya göndəriləcək". Xatırladaq ki, Astara (İran) - Astara (Azərbaycan) dəmir yolu xətti istifadəyə verildikdən sonra İranın Rusiyaya ixrac etdiyi məhsulların həcmi artıb. Dəmir yolu çəkilməzdən öncə İran ixrac əməliyyatlarını yük maşınları ilə həyata keçirirdi. Bu isə həm baha başa gəlir, həm də vaxt itkisinə səbəb olurdu. Meyvə tez xarab olan məhsul olduğu üçün bazara tez çatdırılması lazımdır. İran və Azərbaycanı birləşdirən 8 kilometrlik dəmir yolu istismara buraxıldıqdan sonra bu problem aradan qalxıb. İranın Astara gömrüyündən keçməklə məhsul ixracının artması Azərbaycanın tranzit gəlirlərinin də artmasına səbəb olur.




Gələcəkdə "Şimal-Cənub" nəqliyyat dəhlizinin əsas seqmentindən biri olan Qəzvin-Rəşt-Astara (İran)-Astara (Azərbaycan) dəmir yolu tam istifadəyə verildikdən sonra İranın digər vilayətlərindən, eləcə də Cənub-Şərqi Asiya ölkələrindən Rusiya və Avropaya ixrac olunan yüklər də məhz Azərbaycan ərazisindən keçməklə daşınacaq. Hələlik isə yolun Qəzvin-Rəşt hissəsi istismara verilib, Rəşt-Astara hissəsində isə işlər davam edir. Bu yol istismara verildikdən sonra Azərbaycanın tranzit gəlirləri 5 dəfə artacaq. Eyni zamanda belə vəziyyətdə İran iş adamlarının diqqəti daha çox Azərbaycana yönəlir və bu durumda Ermənistanın İran üçün çox arxa plan keçməsi də təbii sayıla bilər. Xatırladaq ki, elə Avrasiya İqtisadi Birliyinin Ermənistanda keçirilən sammitində də İran prezidenti Həsən Ruhani bütün diqqəti məhz Azərbaycandan keçən marşrutlara yönəltmişdi. Bir daha xatırladaq ki, Həsən Ruhani sammitdəki çıxışında Birliyə üzv olan dövlətləri İranın tranzit imkanlarından faydalanmağa çağırmışdı. O bildirmişdi ki, İranın körfəz, Oman və Xəzər dənizləri sahillərində böyük infrastruktura malik limanları var. Həmin dənizlərin sahillərindəki Astara, Əmirəbad, Ənzəli, Bəndər-Abbas, İmam Xomeyni, Çabahar limanları istənilən həcmdə yükləri qəbul edib yola salmaq imkanına malikdir. Bu limanlar məhz "Şimal-Cənub" dəhlizinin formalaşmasında mühüm rol oynayır. Yəni adıçəkilən limanlara daxil olan yüklər "Şimal-Cənub" dəhlizi ilə daşınacaq. Cənub-Şərqi Asiya ölkələri Rusiya və Avropa ilə yük mübadiləsini və idxal-ixrac əməliyyatlarını məhz bu limanlar vasitəsilə həyata keçirəcək. Belə ki, yüklər dəmir yolu vasitəsilə tranzit olaraq Azərbaycan ərazisindən keçməklə Rusiyaya, oradan isə Qərbi Avropaya daşınacaq. İranın digər rəsmiləri, eləcə də iş adamlarının açıqlamalarından da belə bəlli olur ki, onlar üçün Azərbaycandan keçən "Şimal-Cənub" dəhlizinin əhəmiyyəti gedərək artır. Deməli, belə vəziyyətdə Ermənistan ümumiyyətlə İran üçün əhəmiyyət kəsb etmir.

Bu arada bir maraqlı məqamı da qeyd edək ki, hazırda Azərbaycan-Rusiya-İran "Şimal-Cənub" layihəsinin genişləndirilməsi istiqamətində də fəal iş aparır. Məsələn, artıq "Şimal-Cənub" enerji dəhlizinin yaradılması üzrə texniki-iqtisadi əsaslandırma sənədləri hazırlanır. Görülən bütün bu işlər enerji sahəsində də üç ölkənin əməkdaşlığının genişlənməsinə xidmət edir. Yəni "Şimal-Cənub" təkcə nəqliyyat yox, həm də enerji sektorunu əhatə edir. Təbii ki, "Şimal-Cənub"un nəqliyyat imkanları xüsusi əhəmiyyət kəsb edir. Elə bundan irəli gəlir ki, keçən il bu dəhliz üzrə yükdaşımalar 8 dəfə, bu ilin birinci yarısında isə 63 faiz artıb. Rəşt-Astara dəmir yolu istismara verildikdən sonra yükdaşımaların miqdarı daha çox artacaq və bu da Azərbaycanın yükdaşımalardan daha çox gəlir əldə etməsi deməkdir. Əsas məqamlardan biri isə odur ki, belə vəziyyətdə Azərbaycan daha çox gəlir əldə etdikcə Ermənistan, sadəcə, buna qıraqdan baxmaqla kifayətlənməli olacaq. Çünki Azərbaycanın həyata keçirdiyi layihələr fonunda Ermənistana maraq ümumiyyətlə aradan qalxır.

***Nahid SALAYEV***

# Azərbaycanda islahatlara beynəlxalq reytinq qurumlarından yüksək qiymət dəstəyi...

**Sosial-iqtisadi sferada ölkəmizdə həyata keçirilən islahatlar və onların nəticələri dünya miqyasında da kifayət qədər yüksək qiymətləndirilir. Elə bunun nəticəsidir ki, son dövrlərdə müxtəlif beynəlxalq təşkilatların, reytinq qurumlarının hesabatlarında Azərbaycanın mövqeyi daha önə çəkilir.**

Məsələn, məlumdur ki, elə bu günlərdə Azərbaycan Dünya Bankının nüfuzlu "Doing Business 2020" hesabatında ən islahatçı 20 ölkə sırasına daxil edilib.

Xatırladaq ki, hesabata əsasən, Azərbaycan dörd sahə üzrə sahibkarlıq fəaliyyəti ilə məşğul olmağı asanlaşdırıb. Bu sahələr əmlakın qeydiyyatı, kreditlərin alınması, minoritar investorların hüquqlarının qorunması və müqavilələrin icrasının təmin edilməsidir. Hesabatda qeyd edilir ki, paytaxtın kadastr xəritəsinin tərtib olunması və Bakıdakı hər bir fərdi torpaq sahəsinin qeydiyyatı, eləcə də mövcud sənədləşmənin təkmilləşdirilməsi və daşınmaz əmlak prosedurlarının çevikliyi nəticəsində daşınmaz əmlakın qeydiyyatı prosesi daha da sürətlənib. Minoritar investorların hüquqlarının müdafiəsi tərəflərin imzaladığı əlverişsiz sazişlər üzrə məsuliyyətin direktorlar üzərinə qoyulmasından sonra güclənib. Kommersiya ilə bağlı mübahisələr yarandıqda tərəflər onlayn olaraq müraciət göndərə və vasitəçilik etmək üçün maddi stimul əldə edə bilərlər. Xatırladaq ki, Azərbaycan "Doing Business 2019" hesabatında 32 pillə irəliləyərək ən islahatçı ölkələr sırasında 57-ci pillədən 25-ci yerə yüksəlmişdi. İndi isə ölkəmiz ilk 20-liyə daxildir.

Bir daha qeyd edək ki, 2015-ci ildən etibarən Azərbaycanda genişmiqyaslı iqtisadi islahatlar aparılır. Bu da beynəlxalq hesabatların reytinqlərində, eləcə də barəsində bəhs edilən "Doing Business" hesabatında özünü əks etdirir. Eyni zamanda, beynəlxalq qiymətləndirmələrdən o da məlum olur ki, Azərbaycan hökuməti növbəti illərdə də islahatları davam etdirmək və dərinləşdirmək niyyətindədir. Bunun nəticəsidir ki, Dünya Bankının ardınca "Fitch Ratings" beynəlxalq reytinq agentliyi də ölkəmizə növbəti dəfə yüksək qiymət verərək, onu regionun lideri adlandırıb. "Fitch Ratings"in 2019-cu ilin üçüncü rübünə olan növbəti hesabatda ölkəmiz öz müsbət mövqeyini qoruyub və BB+ qiymətləndirməsi ilə sabit inkişaf tempi nümayiş etdirib. O da xüsusi vurğulanmalıdır ki, Cənubi Qafqaz ölkələri arasında bu göstərici ilə ən yüksək reytinq məhz Azərbaycana məxsusdur.



Agentliyin analizinə əsasən, beynəlxalq iqtisadi və ticarət münasibətlərində xarici balansın saxlanması və aşağı səviyyəli dövlət borcunun olması Azərbaycanın reytinqini yüksək səciyyələndirən əsas amillərdəndir. Dövlətin əsas götürdüyü makroiqtisadi, maliyyə, vergi və sosial islahatlar zəminində istehlak sferasında borclanmanın azaldılmasına, sosial məsələlərin ön plana çəkilməsinə, maliyyə və vergi münasibətlərinin tənzimlənməsinə istiqamətlənən müsbət meyllər inflyasiyanın nəzarətdə saxlanmasına imkan verir. Hesabatda qeyd edilir ki, iqtisadi islahatlar, eləcə də dollarlaşma səviyyəsinin aşağı düşməsi ölkənin xarici iqtisadi şoklara və qlobal arenada yarana biləcək böhranlara çevik reaksiya göstərə bilməsinə şərait yaradıb. Eyni zamanda bank sektorunun sağlamlaşdırılması, problemli kreditlərin həll olunması istiqamətində həyata keçirilən tədbirlər sektorun restrukturizasiyasına, kapitallaşmanın və kredit verilişinin artmasına səbəb olub. Öz növbəsində, iqtisadiyyatın diversifikasiya olunması və neft sektorundan asılılığının aradan qaldırılması məqsədilə ölkədə yaradılan və dəstəklənən münbit biznes mühiti "Fitch Ratings"in analizlərində xüsusi qeyd olunub və ölkəmizin mövqeyinin gücləndirilməsində əhəmiyyətli rol oynayıb.

"Fitch Ratings"dən öncə ölkəmizdəki iqtisadi proseslər "Moody's" beynəlxalq reytinq agentliyi tərəfindən də yüksək qiymətləndirilib. Hətta bunun nəticəsi olaraq "Moody's" Azərbaycan bank sisteminə dair proqnozunu "sabit"dən "müsbət"ədək artırıb. Qurum bildirir ki, iqtisadi artımın davam etməsi, dövlət tərəfindən ev təsərrüfatlarına göstərilən misilsiz dəstək bank sisteminə müsbət proqnoz verilməsini şərtləndirən başlıca amillərdir. "Moody's" dünyada enerjidaşıyıcıların əlverişli qiymətləri, ixracın artması, iqtisadiyyatda qeyri-neft sektorlarının payının böyüməsi nəzərə alınmaqla 2019-2020-ci illərdə ölkəmizdə iqtisadi artım sürətinin 3 faizədək artmasını proqnozlaşdırır. Vurğulanır ki, hökumətin həyata keçirdiyi islahatlar da ölkədəki iqtisadi artıma müsbət təsir göstərməlidir. Təşkilatın ekspertləri proqnozlarda bankların balansını tarazlaşdırmaq, dövlətin ev təsərrüfatlarına dəstəyi sayəsində bank aktivlərinin daha da keyfiyyətli hala gələcəyini güman etdiklərini qeyd edirlər: "İlkin ssenarimizə görə, bankların mənfəətinin artması və mövcud risqlər nəzərə alınmaqla ölçülən aktivlərinin çoxalması sayəsində bütövlükdə bank sistemində kapital yetərliliyi göstəriciləri sabit qalacaq". Hesabatda bank sistemi üzrə dollarlı passivlərin azalması, həmçinin dövlətin dəstəyi sayəsində manatlı likvidliyin yaxşılaşdığı diqqətə çatdırılır. Həmçinin pul-kredit və büdcə-vergi mühiti yaxşılaşdıqca hökumətin ayrı-ayrı banklara yox, bütövlükdə bank sektoruna yardım etdiyi də bildirilir.

Bütün bu yüksək beynəlxalq qiymətləndirmələr isə, ekspertlərə görə, vacib əhəmiyyət kəsb edir. Ən azı o baxımdan ki, qeyd edilənlər dünya miqyasında da yüksək qiymətləndirilir və Azərbaycana yeni investisiya axınına rəvac verir. Digər tərəfdən məlumdur ki, bu gün Cənubi Qafqaz regionunun iqtisadi potensialının 65 faizdən çoxu məhz Azərbaycanın payına düşür. Ölkəmiz iqtisadiyyatın rəqabətqabiliyyətliliyinə görə dünya ölkələri arasında qabaqcıl yerlərdən birini tutur. Bu fonda isə beynəlxalq reytinq agentlikləri Azərbaycanın potensial maliyyə və iqtisadi imkanlarını yüksək qiymətləndirir. Məhz belə vəziyyət dünya biznesinin diqqətinin daha çox Azərbaycana yönəlməsinə rəvac verir. Bütün bunlar həm də 2015-ci ildən etibarən aparılan iqtisadi islahatların dərinləşməsinin beynəlxlaq miqyasda yüksək səviyyədə qiymətləndirilməsi hesab oluna bilər.

O da faktdır ki, aparılan davamlı islahatlar, iqtisadiyyatın şaxələndirilməsi qeyri-neft sektorunda əhəmiyyətli dərəcədə irəliləyişə səbəb olub. Məhz buna görə Azərbaycan dünyada iqtisadi reytiqini də davamlı şəkildə yüksəldir. Ekspertlər qeyd edir ki, iqtisadiyyatın neftdən asılılığının minimuma endirilməsi, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması istiqamətində tədbirlərin uğurla davam etdirilməsi istənilən hədəflərə nail olmağa əlverişli şərait yaradıb.

***Tahir TAĞIYEV***

# ABŞ bir neçə min İŞİD-çi əsiri Suriyanın şimalında buraxaraq geri çəkilir...

## *Vaşinqtondan Türkiyənin Suriyada yeni hərbi əməliyyata başlamasına yaşıl işıq... ABŞ əsgərlərini bölgədən çıxarmağa başladı*

**Bu günə qədər Türkiyənin Suriyanın şimalında hərbi əməliyyata başlamaq niyyətinə qarşı çıxan ABŞ əsgərlərini bölgədən çıxarır, Tel Abyad və Rasulayndakı hərbi bazaları da boşaltmağa başlayıb. Bununla Türkiyə qarşısında əsas maneə ortadan qalxmış oldu. Qardaş ölkə Suriyanın şimalında hərbi əməliyyata hər an başlaya bilər.**

Baki-xeber.com xarici mediaya istinadən xəbər verir ki, ABŞ əsgərlərini bölgədən çıxarılması qərarı ABŞ və Türkiyə prezidentləri Rəcəb Tayyib Ərdoğanla Donald Tramp arasında telefon danışığı zamanı verilib.

Prezidentlərin telefon danışığının təfərrüatlarını Ağ Ev açıqlayıb. "Türkiyə yaxın vaxtlarda Suriyanın şimalına uzun müddətdir planlaşdırdığı əməliyyat üçün hərəkətə keçəcək. ABŞ Silahlı Qüvvələri bu əməliyyatı dəstəkləməyəcək ya da bu əməliyyata daxil olmayacaq" - Ağ Evin açıqlamasında deylir.

ABŞ hökumətinin Suriyada tutulan İŞİD üzvü vətəndaşlarını geri almaları üçün Fransa, Almaniya və digər AB ölkələrinə təzyiq etdiyi, ancaq bu ölkələrin terrorçuları geri almaq istəmədiyi deyilən açıqlamada ABŞ-ın bu insanları illərlə əlində saxlamayacağına işarə edilir.

Ağ Evin açıqlamasında qeyd edilir ki, bundan belə ABŞ-ın son iki ildir bölgədə yaxaladığı İŞİD döyüşçülərinə Türkiyə cavabdeh olacaq.

Hazırda bölgədə 10 min İŞİD-çinin saxlandığı deyilir.

Ərdoğan-Tramp danışığından dərhal sonra bölgədəki ABŞ əsgərlərinin istifadə etdiyi bazaların boşaldılmasına başlanıb. ABŞ əsgərlərinin bölgədən çəkilməsi xəbərlərini Ərdoğan da təsdiqləyib.

ABŞ rəsmilərindən biri "Reuters"ə "Amerika qüvvələri YPG terrorçularını müdafiə etməyəcək" deyib. Agentliyə açıqlama verən bir Türkiyə rəsmisi isə "Hərbi əməliyyat hər an başlaya bilər. Ancaq ABŞ qüvvələrinin bölgədən təm çəkilməsini gözləmək ehtimalı da var" deyib.

Suriya Demokratik Qüvvələrinin (SDG) əsas bazasını təşkil edən YPG/PKK terror təşkilatı isə ABŞ-ın çəkilmək qərarına sərt reksiya verib. "Təhlükəsizlik mexanizmi və mövqelərin dağıdılmasına baxmayaraq, ABŞ qüvvələri öz vəzifələrini yerinə yetirmədi və bölgənin yenidən döyüş meydanına çevrilməsinə icazə verərək sərhəddən çəkilməyə başladılar" - terrorçular bildirib.

Trampın çəkilmək qərarı Amerika və Qərb mediasında da ABŞ-ın Suriyadakı kürd müttəfiqlərini tərk etməsi kimi xarakterizə olunub. "New York Times" qəzeti Trampın Amerikanın siyasətini dəyişdirərək Türkiyənin Suriyada hərbi əməliyyatına dəstək verdiyini yazır: "Trampın qərarı həm İŞİD-ə qarşı əməliyyatlar, həm də İran və Rusiyaya qarşı Suriyanın şimalında kiçik bir hərbi qüvvə saxlamaq istəyən Pentaqon və Dövlət Departamentinin yüksək vəzifəli rəsmilərinin tövsiyələrinə qarşı çıxmaqdır".

"The Guardian" qəzeti də "ABŞ kürd müttəfiqlərini tərk edərək Türk qüvvələrinin Suriyaya girməsinə icazə verəcək" başlıqlı xəbərində ABŞ-ın siyasətini qəflətən dəyişdiyini yazır.

Qəzet Tramp və Ərdoğan arasındakı telefon danışığından sonra Trampın siyasətini dəyişdiyinə diqqət çəkir: "Ağ Ev ani bir siyasət dəyişikliyi ilə Türkiyənin Suriyanın şimalında hərbi əməliyyata başlamasına "yaşıl işıq" yandırdı. Bu, Vaşinqtonun uzun müddətdir müttəfiqi olan kürdləri tərk etməsi mənasını gəlir".

Türkiyənin Suriyanın şimalına ola biləcək əməliyyatı ilə bağlı Rusiyadan da açıqlama gəlib. Kremlin sözçüsü Dmitri Peskov Türkiyənin öz təhlükəsizliyini təmin etməyə yönəlmiş addımlarından xəbərdar olduqlarını və bunu qəbul etdiklərini deyib. Suriyanın ərazi və siyasi bütövlüyü şərtinə Türkiyənin bağlılığını Kremlin bildiyini vurğulayan Peskov daha sonra bildirib: "Suriya böhranının həllində və digər problemlərdə Suriyanın ərazi bütövlüyü başlanğıc nöqtəsidir. Ümidvarıq ki, türkiyəli həmkarlarımız bütün şərtləri, ilk növbədə bu şərti yerinə yetirəcəklər... Türkiyənin öz təhlükəsizliyini təmin etməyə yönəlmiş addımlarından xəbərdarıq və bunu qəbul edirik. Suriya torpaqlarına sığına biləcək terror ünsürlərinə qarşı çıxmağı nəzərdə tuturuq".

Peskov ərazı bütövlüyü məsələsində Türkiyənin Rusiyanın mövqeyini dəstəklədiyini bildiklərini də vurğulayıb. Peskov Rusiyanın mövqeyinin "Suriyada qanunsuz hərbi mövcudluğu olan bütün xarici qüvvələrin geri çəkilməsi" olduğunu deyib. Kremlin sözçüsü gözlənilən əməliyyatla bağlı Putinlə Ərdoğan arasında hələlik heç bir müzakirənin olmadığını da sözlərinə əlavə edib.

Avropa Birliyindən isə Türkiyənin narahatlığının başadüşülən olduğu, ancaq Suriyadakı problemin hərbi yox, siyasi yolla həll edilə biləcəyi qeyd edilib. Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlu isə bildirib ki, Suriyanın şimalındakı yeni antiterror əməliyyatları bu ölkəyə sülh və sabitlik gətirmək üçündür: "Türkiyə, əvvəllər olduğu kimi, Suriyanın ərazi bütövlüyünü dəstəkləyir". Nazir əlavə edib ki, Türkiyə regionu terrorçulardan təmizləyəcək.

Onu da qeyd edək ki, Türkiyə Suriya ilə sərhədə əlavə qoşun və hərbi texnika toplayır. Müxalif Azad Suriya Ordusu da Türkiyənin planlaşdırılan hərbi əməliyyatına dəstək verəcək. Bir neçə gün əvvəl Türkiyə prezidenti türk qoşunlarının Fərat çayının şərqində hərbi əməliyyata başlamağa hazır olduğunu deyib. Ərdoğan Suriya sərhədini ABŞ-ın dəstəklədiyi kürd "özünümüdafiə qüvvələri"ndən təmizləmək və orada "təhlükəsizlik zonası" yaratmaq istəyir. Ankara hesab edir ki, həmin qüvvələr Türkəyədəki separatçılara kömək edir. Vaşinqton isə "özünümüdafiə qüvvələri"nə İŞİD-ə qarşı mübarizədə müttəfiq kimi yanaşır.



## Tramp Suriyadan çıxmaq ərəfəsində "Qəbilələrarası bu gülünc və bitməyən müharibələrdən çıxmağımızın vaxtı gəldi" dedi...

**Xəbər verildiyi kimi, Türkiyənin Suriyanın şimalında hərbi əməliyyata başlayacağı barədə qəti bəyanatlarından sonra ABŞ əsgərlərini bölgədən çıxarmağa başlayıb.**

Baki-xeber.com xəbər verir ki, ABŞ ordusu Türkiyənin hədəfində olan Tel Abyad və Rasulayndakı hərbi bazaları artıq boşaltmağa başlayıb. Yaxın günlərdə Türkiyənin Suriyanın şimalında hərbi əməliyyata başlayacağı gözlənir.

ABŞ əsgərlərini bölgədən çıxarılması qərarı ABŞ və Türkiyə prezidentləri Rəcəb Tayyib Ərdoğanla Donald Tramp arasında telefon danışığı zamanı verilib.

Prezidentlərin telefon danışığının təfərrüatlarını Ağ Ev açıqlayıb. "Türkiyə yaxın vaxtlarda Suriyanın şimalına uzun müddətdir planlaşdırdığı əməliyyat üçün hərəkətə keçəcək. ABŞ Silahlı Qüvvələri bu əməliyyatı dəstəkləməyəcək ya da bu əməliyyata daxil olmayacaq" - Ağ Evin açıqlamasında deylir.

ABŞ prezidenti Türkiyənin Fəratın şərqində planlaşdırılan əməliyyatına razılıq verib, Amerika qoşunlarını bölgədən çıxarmaq qərarı tənqidlərə səbəb olub. Tramp əsasən ABŞ-ın bölgədəki yeganə müttəfiqi olan kürdləri meydanda tək qoymaqda günahlandırılır. Tramp isə onu tənqid edənlərə rəsmi Twitter hesabından cavab verib.

"ABŞ illər əvvəl Suriyada 30 gün qalmalı idi. Biz qaldıq və məqsədi olmayan müharibədə getdikcə daha dərinə batdıq. Vaşinqtona gələndən sonra İŞİD-i 100 faiz məğlub etdik. Bura əksəriyyəti Avropadan olan minlərlə İŞİD döyüşçüsünün tutulması da daxildir.

Ancaq Avropa bunları geri istəmədi, "Sən onları saxla ABŞ" dedilər. Mən də dedim ki: "YOX, sizə böyük kömək etdik və indi bizdən çox baha qiymətə ABŞ həbsxanalarında saxlamağımızı istəyirsiniz. Onlar mühakimə etmək üçün sizindir".

Yenə dedilər ki, "XEYR", hər zamanki kimi ABŞ-ın NATO-nun, ticarətin, hər şeyin "sadəlövh"ü olduğunu güman etdilər. Kürdlər bizimlə birlikdə döyüşdü, amma bunu etmələri üçün onlara böyük miqdarda pul ödəndi, təchizat verildi. Onlar on illərdir Türkiyə ilə döyüşürlər.

Bu savaşda təxminən üç il gözlədim. Ancaq artıq çoxu qəbilələrarası olan bu gülünc və bitməyən müharibələrdən çıxmağımızın və əsgərlərimizi geri qaytarmağın vaxtı gəldi.

Bizim xeyrimizə olan yerdə savaşacağıq və sadəcə qazanmaq üçün savaşmayacağıq. Ancaq indi bu absurd müharibələrdən çıxmağın vaxtı gəldi. Türkiyə, Avropa, Suriya, İran, İraq, Rusiya və kürdlər indi bu işin həlli yolunu tapmalıdırlar. Hamısı da İŞİD-dən nifrət edir və illərdir düşməndirlər. Biz 7000 mil məsafədəyik və bizə yaxın bir yerə gəlsələr, İŞİD-i yenə məğlub edərik" - ABŞ prezidenti bildirib.

# Azərbaycanda Rusiyanın, Rusiyada Azərbaycanın milyardlarla dollar investisiyası...

**Azərbaycan Prezidenti İlham Əliyev rusiyalı həmkarı Vladimir Putinlə "Valday" Beynəlxalq Diskussiya Klubunun 16-cı toplantısı çərçivəsində görüşüb. Görüşdə iki ölkə arasında münasibətlər və iqtisadi perspektivlər müzakirə olunub.**

*"...ticarət dövriyyəsi ötən il 2,5 milyard dollar olub"*

**Rüfət Quliyev:** *"Hər iki ölkə arasında yaşanan iqtisadi münasibətlərin inkişaf etməsi qarşılıqlı investisiyaların artmasına səbəb olur və olacaq"*

Məlumdur ki, Azərbaycanla Rusiya arasında həmişə isti münasiblər mövcud olub. İki ölkə arasında iqtisadi münasibətlər, qarşılıqlı ticarət əlaqələri, kənd təsərrüfatı sahəsində əməkdaşlıq daim inkişaf edir.

"Valday" Beynəlxalq Diskussiya Klubunun 16-cı toplantısı çərçivəsində görüşdə iştirak edən Azərbaycan Prezidenti İlham Əliyev rusiyalı həmkarı Vladimir Putinlə iki ölkə arasındakı iqtisadi münasibətlərdən söhbət açıb. Dövlət başçısı qeyd edib ki, 2018-ci ilin avqustu ilə müqayisədə 2019-cu ilin avqustuna ikitərəfli ticarət dövriyyəsi 20% artıb: "Müsbət dinamika artımı ən azı ilin sonuna qədər davam edəcək".

Hər iki tərəf 2018-ci ildə ticarət dövriyyəsinin 2,55 milyard dollar səviyyəsində olduğunu, 2017-ci ildən 19,1% artdığını qeyd edib.

Rusiya ilə Azərbaycan arasında ticari, iqtisadi münasibətlərin inkişaf etməsi hər iki ölkənin bir-birinə investisiya yatırmasına səbəb olur.

Millət vəkili Rüfət Quliyev bizimlə söhbətində qeyd etdi ki, iki ölkə arasında münasibətlər uğurla inkişaf edir: "Rusiya ilə Azərbaycan arasında ticari-iqtisadi əlaqələr möhkəmlənir. Hətta hər iki ölkə arasındakı ticarət dövriyyəsi ötən il 2,5 milyard dollar olub".

Həmsöhbətimiz onu da vurğuladı ki, hər iki ölkənin birgə iştirakı ilə mühüm tədbirlər həyata keçirilir: "Keçirilən tədbirlərdə Rusiya və Azərbaycan iş adamları iştirak edirlər. Bu cür tədbirlər sayəsində həm iki ölkə arasındakı münasibətlər inkişaf edir, eyni zamanda, investorlar investisiya yatırmaqda maraqlı olurlar. Azərbaycanla Rusiya arasındakı iqtisadi münasibətlər ildən-ilə artır. Görülən işlər sayəsində Azərbaycanda çoxlu sayda Rusiya şirkəti fəaliyyət göstərir. Eynilə Rusiyada Azərbaycan şirkətləri fəaliyyət göstərir".



Millət vəkilinin sözlərinə görə, bu gün bizim ölkələr müxtəlif sahələrdə: siyasi, iqtisadi, humanitar, nəqliyyat və informasiya texnologiyaları, energetika üzrə əməkdaşlıq edirlər: **"Məlumdur ki, Azərbaycan və Rusiya iri investisiya, infrastruktur layihələrinin həyata keçirilməsində fəallıq göstərir. Hər iki ölkə arasında yaşanan iqtisadi münasibətlərin inkişaf etməsi qarşılıqlı investisiyaların artmasına səbəb olur və olacaq".**

***Günel CƏLİLOVA***

# Kiçik və orta biznesmenlər ən ağır kredit girovu məsələsindən azad oldular

**Azərbaycanda əhalinin layiqli həyat səviyyəsini təmin etmək və sosial rifahını yüksəltmək, iqtisadiyyatın tarazlı və dayanıqlı inkişafına xidmət üçün sahibkarlıq kreditlərinin verilməsi zamanı təminatla (girov) bağlı tələblər aradan qaldırılıb.**

*"Azərbaycanda iş yerinin yaranması üçün 25 min manat vəsait tələb olunur"*

**Natiq Cəfərli:** *"Zaminliyin ləğv olunması sahibkarlığın inkişaf etməsinə səbəb olacaq"*

Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun yaydığı məlumatda qeyd olunur ki, son illərdə həyata keçirilən, konkret hədəflərə yönəlmiş məqsədyönlü islahatlar nəticəsində ölkədə biznes və investisiya mühitinin əlverişliliyi daha da artırılıb: "2018-ci ilin sonlarından etibarən İpoteka və Kredit Zəmanət Fondu (Fond) tərəfindən kredit zəmanət mexanizminin və faiz subsidiyalarının verilməsinin tətbiqinə başlanılıb, bu dövr ərzində Fondun dəstəyilə iqtisadiyyatın müxtəlif sahələri üzrə (qida sənayesi məhsullarının istehsalı, kənd təsərrüfatı, ticarət xidmətləri, maşın və avadanlıq istehsalı, eləcə də digər sənaye məhsullarının istehsalı və emalı) 41,759,000 manat məbləğində sahibkarlıq kreditlərinin verilməsinə nail olunub. Həyata keçirilmiş dəyişikliklər nəticəsində artıq Fondun kredit reytinqi modelinə əsasən aşağı risq kateqoriyasına aid edilmiş, lakin təminat səviyyəsi qənaətbəxş olmayan sahibkarlar üçün Fondun zəmanətilə təminatsız sahibkarlıq kreditlərindən istifadə imkanları yaradılıb. Mövcud mexanizm çərçivəsində verilən sahibkarlıq kreditləri üzrə təminata dair tələblərin aradan qaldırılması daha çox sahibkarlıq subyektinin maliyyələşməsinə, təminat yetərsizliyi olan sahibkarların maliyyə resurslarına çıxış imkanlarının artırılmasına, nəticə etibarilə iqtisadiyyatın şaxələnməsinə, iqtisadi aktivliyin və ölkədə qeyri-neft sektorunun inkişafının dəstəklənməsinə şərait yaradacaq".

Girov tələbinin ləğv olunmasının əhəmiyyəti haqqında danışan iqtisadçı ekspert Natiq Cəfərli "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, zaminliyin ləğv olunması sahibkarlığın inkişaf etməsinə səbəb olacaq. İl ərzində banklar tərəfindən sahibkarlıqla məşğul olanlar üçün 45 milyon manat vəsait ayrılıb. Bu rəqəm kiçik və orta sahibkarlıq məşğul olmaq istəyənlər üçün az rəqəmdir: "Nəzərə almaq üçün iş yerinin yaranması üçün kifayət qədər vəsait lazımdır.




Azərbaycanda iş yerinin yaranması üçün 25 min manat vəsait tələb olunur. Vəsaitin artırılmasına ehtiyac var". Həmsöhbətimiz hesab edir ki, kiçik və orta sahibkarlıqla məşğul olanlara kredit verilişi zamanı zaminliyin ləğv olunması müsbət addımdır. Bu addım istehsal sahələrinin artmasına səbəb olacaq.

***Günel CƏLİLOVA***

# Balaxanının 5 minlik Fazenda sakinləri məktəbsiz qalıb

**Əhalisi kifayət qədər olan yaşayış məntəqələrində məktəb, uşaq bağçası və xəstəxana kimi gərəkli təsisatların olması vacibdir. Ölkəmizin hər yerində, o cümlədən də ucqar kəndlərdə belə müasir tipli məktəblər inşa edilərək şagirdlərin ixtiyarına verildiyi halda, Bakının lap yaxınlığında yerləşən bəzi yaşayış massivlərində hələ də orta məktəb yoxdur və həmin ərazilərdə yaşayan sakinlərin övladları yaşayış yerlərindən uzaqda yerləşən məktəblərə gedirlər.**



Sabunçu rayonu Balaxanı qəsəbəsinin Fazenda adlandırılan yaşayış məntəqəsinin sakinləri ərazidə məktəb olmadığından, uşaqlarını bir neçə kilometr uzaqda yerləşən Balaxanı qəsəsəbəsindəki məktəblərə aparmaq məcburiyyətində qalıblar.

Fazenda yaşayış massivinin sakini Mirzəyev Təvəkkül Əli oğlu sakinlər adından redaksiyamıza müraciət edərək problemin həll edilməsi üçün bu məsələnin ictimailəşdirilməsini istədi. T.Mirzəyev bizimlə söhbətində bildirdi ki, Fazenda yaşayış massivi 2004-cü ildən salınmasına və ərazinin qazlaşdırılmasına, işıq və su ilə təmin olunmasına baxmayaraq, məktəb problem olaraq qalmaqdadır. Dəfələrlə qəsəbə rəhbərliyinə müraciət etdiklərini deyən T.Mirzəyevin sözlərinə görə, problem hələ də öz həllini tapmayıb.

"Biz Balaxanı qəsəbəsinin Fazenda adlanan yaşayış məntəqəsində yaşayırıq. Bizim yaşadığımız ərazidə orta məktəb yoxdur, uşaqlarımız oxumaq üçün Balaxanı qəsəbəsindəki məktəblərə gedirlər. Hava yağışlı olanda yollar palçıq olur və əraziyə taksilər gələ bilmir, nəticədə isə uşaqlarımız məktəbə getmirlər. Biz uşaqlarımızı xüsusi taksi ilə yola salırıq. Taksilər də uşağın birini 30 manata aparır. Mənim üç uşağım məktəbə gedir və mən ay ərzində 90 manat taksi pulu verirəm. İnanın ki, çox əziyyət çəkirik. Ayda 90 manat vermək bizim üçün çox çətindir. Məktəb olmadığı üçün əziyyətimiz hərtərəfli böyükdür. Uşaqlarımız da həddən artıq yorulurlar. Bu gün Azərbaycan inkişaf etmiş dövlətdir və demək olar ki, hər yerdə

***Təvəkkül Mirzəyev:** "Bizim yaşadığımız ərazidə orta məktəb yoxdur, uşaqlarımız oxumaq üçün Balaxanı qəsəbəsindəki məktəblərə gedirlər"*

***Şamil Alıyev:** "Fazendaya bitişik Zabrat ərazisində məktəb tikintisi nəzərdə tutulub və artıq torpaq sahəsi də ayrılıb"*

dövlət tərəfindən, eləcə də Heydər Əliyev Fondunun dəstəyilə orta məktəblər tikilir. Çox arzu edərdik ki, Fazenda yaşayış məntəqəsində də bir məktəb binası tikilsin. Bizim yaşayış məntəqəsində təxminən 5 minə yaxın sakin yaşayır və bəlkə də bizim uşaqlar bir məktəbə yerləşməz. Yəni uşaq çoxdur".

T.Mirzəyev ümid edir ki, tezliklə Fazenda yaşayış massivində yeni tipli məktəb inşa ediləcək və uşaqları bu məktəbdə təhsil alacaqlar. T.Mirzəyev qeyd etdi ki, bu məktəbin inşasına hava-su kimi ehtiyac var və Təhsil Nazirliyi, eləcə də digər qurumlar bununla bağlı zəruri addımlar atarsa, bu, məktəblə bağlı problemin birdəfəlik həllinə gətirib çıxarar.

Məsələ ilə əlaqədar Sabunçu Rayon İcra Hakimiyyəti başçısının Balaxanı qəsəbəsi üzrə nümayəndəsi Şamil Alıyevlə də əlaqə saxladıq. Ş.Alıyev "Bakı-Xəbər"ə bildirdi ki, konkret olaraq Fazenda yaşayış massivində hər hansı bir məktəbin inşası nəzərdə tutulmur, amma Fazenda və Zabrat qəsəbəsini birləşdirilən ərazidə məktəb binası tikilməsi gündəmdədir. O hesab edir ki, sözügedən ərazidə məktəb binası inşa edildikdən sonra həm Fazendanın, həm də Zabrat qəsəbəsinin Fazendaya yaxın ərazilərinin sakinlərinin övladları bu məktəbdə təhsil alacaqlar. "Fazendaya bitişik Zabrat ərazisində məktəb tikintisi nəzərdə tutulub və artıq torpaq sahəsi də ayrılıb. Lakin o məktəbin nə zaman tikilib istifadəyə verilməsi haqqında məlumatsızıq. Bu məktəbdə həm Zabratın Fazendaya yaxın ərazilərinin, həm də Fazendanın sakinlərinin övladlarının təhsil alması nəzərdə tutulur" - deyə Ş.Alıyev qeyd etdi.

***İradə SARIYEVA***

# Bakıda zibil qutuları binaların beş addımlığında, heç vaxt dezinfeksiya olunmur...

**İllər öncə şəhər yerlərində zibil qutuları yox dərəcəsində idi. Böyüklü-kiçikli hər kəs zibili küçəyə atmasını zibil qutularının olmaması ilə əlaqələndirirdi. Amma son illərdə həm paytaxtda, həm də digər şəhərlərdə küçə və prospektlərə zibil qutularının qoyulması bu bəhanəni qismən aradan qaldırdı. Son zamanlar Bakıda məişət tullantıları üçün qablar yeniləri ilə əvəzlənir.**




Bəllidir ki, zibil qutuları əsasən yaşayış yerlərində, binaların həyətində, yol kənarında qoyulur. Əsasən də zibil qutuları binaların qarşısında qoyulur. Zibil daşınana qədər və daşınandan sonra həmin qutulardan xoşagəlməz qoxu ətrafa yayılır.

Bəzi ərazilərdə zibil qutuları əsasən binaların girişi ilə üzbəüz yerlərə qoyulur ki, bu səbəbdən ətrafı üfunət iyi bürüyür. Ekspertlər bildirirlər ki, zibil qutuları vaxtlı-vaxtında dərmanlanarsa, ətrafa qoxu yayılmaz. Ancaq Bakı və bölgələrdə zibil qutularının nə zamansa dezinfeksiya olunduğu bəlli deyil. Sovet dönəmində zibil qutuları hər gün dezinfeksiya olunardı.

Qeyd edək ki, qonşu ölkələrdə hər səhər zibil qutuları xüsusi dərmanla dezinfeksiya olunur. Rusiya və Gürcüstanın zibil qutularından, Bakıda olduğu kimi, üfunət iyi gəlmir. Ancaq bizdə isə zibil qutuları nəinki dezinfeksiya olunur, hətta bəzi ərazilərdə zibil qutuları vaxtında daşınmadığı üçün həmin yerdə zibil topası əmələ gəlir.

Zibil konteynerlərinin yaşayış yerlərində, binaların həyətində, yol kənarında qoyulduğunu nəzərə alsaq, görərik ki, bu konteynerlərin dezinfeksiya məsələsi də aktuallıq kəsb edir. Maraqlıdır, zibil qabları dezinfeksiya olunurmu və bunun üçün nə qədər müddət nəzərdə tutulub?

Bakı Şəhər Mənzil-Kommunal Təsərrüfatı Departamentinin Kommunal xidmətlər müəssisəsinin direktoru İlqar Hüseynovun sözlərinə görə, zibil qutuları mütəmadi olaraq xüsusi yuy-

***Bakı Şəhər Mənzil-Kommunal Təsərrüfatı Departamenti - İlqar Hüseynov:** "Zibil qutuları mütəmadi olaraq xüsusi yuyucu vasitələrdən istifadə edilməklə yuyulur"*

***Telman Zeynalov:** "Zibil qutularının yeri və ətrafı vaxtlı-vaxtında dezinfeksiya olunmalıdır"*

ucu vasitələrdən istifadə edilməklə yuyulur. Onun sözlərinə görə, bu işi rayon mənzil-kommunal təsərrüfatı birliklərinin əməkdaşları həyata keçirirlər: "Bakıda zibil qutularının yenilənməsi ilə bağlı işlər başa çatdırıldıqdan sonra dezinfeksiya işləri daha tez-tez aparılacaq. Məlumat üçün bildirim ki, paytaxtın Nərimanov, Səbail, Yasamal, Binəqədi, Nəsimi və Nizami rayonlarında məişət tullantılarının yığılması üçün iki rəngdə plastik zibil qutuları qoyulub. Gələcəkdə bütün rayonlarda belə qutuların qoyulması nəzərdə tutulur".

Ekoloq Telman Zeynalov bildirdi ki, zibil qutularının yeri və ətrafı vaxtlı-vaxtında dezinfeksiya olunmalıdır: "Hər rayonun Mənzil-Kommunal Təsərrüfatı Birliyi (MKTB) ərazi dezinfeksiya şöbələri ilə bu xidməti həyata keçirmək üçün müqavilə bağlamalıdır. MKTB-lər həmin müqavilələri bağlamağa təşəbbüs göstərmirlər. Müqavilələrin sayı sıfır səviyyəsindədir. Ona görə də ağcaqanad, həşəratlar artır. Vətəndaşlar məişət tullantılarının mütəmadi daşınmamasından şikayət edirlər. Vaxtında daşınmayan və dezinfeksiya olunmayan zibil qutuları xəstəlik mənbəyidir".

Həmsöhbətimizin sözlərinə görə, şəhərin zibil problemini həll etmək məqsədilə dövlətin, özəl sektorun və insanların kifayət qədər pul verməsinə baxmayaraq, Bakı şəhərinin təmizliyinin təmin edilməsi sahəsində ciddi problemlər hələ də qalır. Pis haldır ki, bu, aidiyyəti qurumları narahat etmir.

***Günel CƏLİLOVA***

# Autizm mərkəzlərinin təlim-müalicə tələbatlarını tam ödəyə bildiklərinə şübhələr var

**Bu gün nəinki Azərbaycan cəmiyyətini, eləcə də bütün dünyanı təhdid edən autizm uşaqlar üçün qarşısıalınmaz bəlaya çevrilib. Azərbaycanda səbəbi hələ tibb elminə məlum olmayan autizmdən əziyyət çəkən uşaqların sayı kifayət qədərdir. Hələ heç bir elmi araşdırma bu xəstəliyin nədən yarandığını aydınlaşdıra bilməyib.**



***Almara Məlikova:** "Bu gün Azərbaycanda autizmli uşaqlara xidmət göstərən mərkəzlərin bir çoxunda həqiqətən də həm qiymətlər bahadır, həm də xidmət səviyyəsi çox aşağıdır"*

***Çiçək Məmmədli:** "Təklif edirəm ki, Azərbaycanda autizmli xəstələrlə bağlı dövlət səviyyəsində xüsusi bir mərkəz yaradılsın"*

Baxmayaraq ki, dünyanın aparıcı elmi-tibb müəssisələri son illər bu xəstəliyin yaranma səbəbini üzə çıxarmaq üçün saysız tədqiqat aparırlar.

Mütəxəssislərin qeyd etdiyinə görə, autizm üç yaşından əvvəl başlayan və ömür boyu sürən, ictimai qarşılıqlı təsirə və ünsiyyətə zərər verən, məhdud və təkrarlanan davranışlara gətirib çıxaran, beyinin inkişafına maneə törədən bir xəstəlikdir. Bu əlamətlər autizmi Asperger sindromu kimi daha yüngül görünən autistik spektrum pozuqluğundan (ASP) ayırır.

Azərbaycanda övladları autizmli olan valideynlər bir sıra məsələlərdə ciddi çətinliklərlə üzləşirlər. Onlar hesab edirlər ki, autizmli uşaqlar üçün mövcud olan reabilitasiya-təlim mərkəzləri özəldir və özəl olduğu üçün də həddən artıq bahadır. Autizmli uşaqların təqaüd aldığını deyən valideynlər bildirirlər ki, bu təqaüdün də üstünə kifayət qədər vəsait qoymaqla uşaqlarının bir aylıq müalicə-təlim işlərinin həyata keçirilməsinə nail ola bilirlər. Bu gün Azərbaycanda 6000-ə yaxın autizmli insan olduğunu deyən valideynlərin sözlərinə görə, onların heç də hamısı reabilitasiya mərkəzlərinə gedə və müalicə ala bilmir. Səbəb isə qiymətlərin həddən artıq baha olmasıdır. Valideynlər qeyd edirlər ki, məktəb yaşına çatan autizmli uşaqların dərs hazırlığı, qiyməti 15 manat olmaqla, cəmi 1 saat davam edir. Həftə ərzində yalnız 75 manat həzırlıq müəlliminə verilir. 20 manat isə gündəlik uşaqla məşğul olan psixoloqa verilir ki, o da cəmi 45 dəqiqə uşaqla işləyir. Həftə ərzində autizmli uşaqla işləyən psixoloqa 100 manat məbləğində vəsait ödənilir. Bundan başqa, mərkəzlərin bir çoxunda bütün xidmətlər göstərilmir və bu səbəbdən də valideynlər gün ərzində ayrı-ayrı ərazilərdə yerləşən mərkəzlərə üz tuturlar. Autizmli uşaqların reabilitasiya-təlim mərkəzlərinin bir çoxunda keyfiyyətli xidmət göstərilmədiyini, bəzi mərkəzlərdə belə uşaqlara başdansovdu yanaşıldığını deyən valideynlərin bildirdiklərinə görə, müalicə və təlimlərin keyfiyyətsiz olması uşaqların vəziyyətini daha da ağırlaşdırır.

Valideynlər deyirlər ki, autizm diaqnozlu uşaq həftədə minimum 20, maksimum isə 40 saat reabilitasiya təhsili almalıdır, lakin bəzi ailələrin buna imkanı çatmır və uşaqları bundan məhrum olur. Bəzi reabilitasiya mərkəzlərində autizmli bir uşağın həftədə dörd saat reabilitasiya təhsili alması üçün 250-300 manat tələb olunduğu bildirilir. Valideynlər deyirlər ki, ay ərzində isə bu məbləğ 1000-2000 manat arasındadır. Hər ailənin buna imkanının çatmadığını deyən valideynlər hesab edirlər ki, Səhiyyə Nazirliyi, Milli Məclis və digər orqanlar bu məsələ ilə bağlı xüsusi qərar qəbul etməlidirlər.

Autizm-Uşaq İnkişaf Mərkəzinin rəhbəri Almara Məlikova "Bakı-Xəbər"ə açıqlamasında valideynlərin narazılığının əsassız olmadığını bildirdi. A.Məlikovanın sözlərinə görə, həqiqətən də bir sıra autizm mərkəzlərində həm qiymətlər bahadır, həm də keyfiyyətli xidmət yoxdur. Valideynlərin narahatlığına səbəb olan məsələlərin həll edilməsinə tərəfdar olduğunu deyən A.Məlikovanın sözlərinə görə, bu gün bu sahədə təsadüfi adamlar çoxdur. "Bu gün Azərbaycanda autizmli uşaqlara xidmət göstərən mərkəzlərin bir çoxunda həqiqətən də həm qiymətlər bahadır, həm də xidmət səviyyəsi çox aşağıdır. Bu baxımdan, autizmli uşaqların valideynlərinin narazılıqları, narahatlıqları əsaslıdır. Yalnız mənim rəhbərlik etdiyim mərkəzdə autizmli uşaqlara yüksək səviyyəli xidmət göstərilir. Bizim mərkəzdə qiymətlər münasibdir. Çünki biz bütün xidmətləri valideynlərə paket şəklində təqdim edirik. Dərslər də, psixoloq xidmət də və sair daxil olmaqla, tutalım, biz onlardan 25 manat alırıq. Ancaq bu, başqa mərkəzlərdə belə deyil. Bizim mərkəzdə peşəkarlar fəaliyyət göstərirlər. Deyim ki, bəzi mərkəzlərdə autizmli uşaqların müalicəsi ilə deyil, valideynlərin cibinə girməklə məşğul olurlar. İndiyə qədər heç bir valideynin cibinə girməmişəm. İnanın ki, hətta elə uşaqlar olub ki, aztəminatlı ailənin uşağı olduğu üçün ondan ödəniş almamışıq" -deyə A.Məlikova bildirdi.

"Azərbaycan Respublikası Autizm Defektoloji və Psixoloji Yardım Mərkəzi" İctimai Birliyinin sədri Çiçək Məmmədlinin sözlərinə görə də valideynlərin narazılığı haqlı narazılıqdır. Ç.Məmmədlinin sözlərinə görə, Azərbaycanda ilk dəfə autizmli uşaqların reabilitasiyası ilə bağlı təşkilatı o yaradıb. O hesab edir ki, autizmli uşaqlara bağlı vahid dövlət qurumu yaradılarsa, həm bahalığa, həm keyfiyyətsiz xidmətə, həm də pərakəndəliyə son qoyular. "Həqiqətən də qiymətlər çox bahadır. Ona görə ki, autizmli uşaqların reabilitasiya mərkəzləri özəldir və hər mərkəz də istədiyi qiyməti müəyyən edir və xidmət göstərir. Bu iş, ümumiyyətlə, çox bahalı və səbr tələb edən işdir. Hər adam da bu cür uşaqlarla işləməyi bacarmır. Mən dəfələrlə hökumətə müraciət etmişəm ki, ölkədə mərkəzləşdirilmiş autizm mərkəzi yaradılsın. Hazırda da Prezident İlham Əliyevə, ölkəmizin Birinci vitse-prezidenti Mehriban Əliyevaya, eləcə də Milli Məclisə məktub hazırlayıram. Ümumiyyətlə, davamlı olaraq dövlət qurumlarına müraciətlər edir, təkliflər verirəm. Təklif edirəm ki, Azərbaycanda autizmli xəstələrlə bağlı dövlət səviyyəsində xüsusi bir mərkəz yaradılsın. Bu sahənin mərkəzləşdirilməsi vacibdir. Eyni zamanda da özəl autizm mərkəzlərinə ya Təhsil Nazirliyi, ya Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, ya da digər aidiyyəti qurumlar baxış keçirsinlər, onların fəaliyyətini yoxlasınlar. Çünki buna ciddi ehtiyac var. Bu gün, aidiyyəti oldu-olmadı, istənilən adam bir mərkəz açır, istədikləri adamları mütəxəssis kimi ora dəvət edir və xidmət haqqı üçün də istədiyi qiyməti qoyur. Ancaq bu belə olmamalıdır. Valideynlər çox əziyyət çəkirlər, bilmirlər uşaqlarını müalicə etdirsinlər, yoxsa yollarda qalsınlar. Hazırda autizm mərkəzlərində ciddi monitorinqlər aparılması zərurətə çevrilib. Valideynlər yazıqdırlar. Onların üz tutacaqları bir dövlət mərkəzi olmalıdır ki, onlar əziyyət çəkməsinlər, artıq pul xərcləməsinlər. Düzdür, dövlət bu uşaqların müalicə almasını tam olaraq qarşılaya bilməyəcək, imkanı olanlar özəl mərkəzlərə də gedəcəklər, amma keyfiyyətli xidmət göstərilən yerə" - deyən Ç.Məmmədli qeyd etdi ki, onun rəhbərlik etdiyi qurumun ayrıca məkanı yoxdur, onun mütəxəssis komandası özünün evində fəaliyyət göstərir.

O bildirdi ki, onun ayrıca bir mərkəzə ehtiyacı var və bu mərkəzin inşası üçün dövlət dəstəyi zəruridir. "Mən məcburiyyət qarşısında qalıb autizmli uşaqlarla evimdə işləyirəm. Evim də qəzalı vəziyyətdədir. Mənim mərkəzimin ayrıca binası yoxdur, amma peşəkarlardan ibarət peşəkar komandam var. Mən Azərbaycanda yeganə adamam ki, bu cür uşaqların müalicəsi, reabilitasiyası üçün qiymət qoymamışam. Kimin nəyə imkanı çatır, onu da verir. Heç vaxt valideynin cibinə girməmişəm. O mərkəzlərdə işləyənlərin hamısı məndən, mənim işçilərimdən dərs alıb gediblər. Amma onların pulları olduğu üçün ya icarəyə yer götürürlər, ya da ayrıca bina tikdirib oranı böyük mərkəzə çevirirlər, qiymətləri də elə yüksək qoyurlar ki, ora yaxın düşmək olmur. Mənim mərkəzimdə hətta uşaqlara pulsuz xidmət də göstərilir".

**Ç.Məmmədli hesab edir ki, autizmli uşaqlar üçün dövlət xəttilə ayrıca mərkəzin yaradılması sözügedən sahədəki problemləri aradan qaldıra bilər.**

***İradə SARIYEVA***

# "Qala" taekvondo klubunun komandasının yeni uğuru - 5 qızıl, 1 bürünc medal...

**5-6 oktyabr 2019-cu il tarixlərində Masallı şəhərində Müstəqillik Gününə həsr olunmuş Masallı açıq birinciliyində "Qala" taekvondo klubunun komandası da iştirak edib. 7 nəfərlik heyətlə Masallıya yola düşən komanda üzvləri yarışda böyük nəticə göstəriblər.**




"Qala" taekvondo klubunun rəhbəri, 4-cü dan qara kəmər, respublikanın əməkdar məşqçisi Ramil Həsənov "Bakı-Xəbər"ə bildirdi ki, gərginlik şəraitində keçən turnirdə respublikanın bir sıra taekvondo klublarının təmsilçiləri iştirak ediblər. Yetirmələrinin nəticələrindən razı qalan R.Həsənovun bildirdiyinə görə, yetirmələri bu dəfə də etimadını doğruldublar.

R.Həsənov qeyd etdi ki, Müstəqillik Gününə həsr olunmuş Masallı açıq birinciliyində "Qala" taekvondo klubunun 5 idmançısı qızıl, 1 idmançısı isə bürünc medala layiq görülüb.

Turnirdə klubun idmançıları Mircəfər Cabbarov, Mirnadir Cabbarov, Aydın Nəbiyev, Nizami Ələkbərli və Əsgər Həsən 1-ci, Hüseyn Səfərli isə III yeri tutublar.

Qeyd edək ki, idmançıların məşqçiləri respublikanın əməkdar məşqçisi Ramil Həsənov və tanınmış idman ustası Fatma Əliyevadır.

***İradə SARIYEVA***

№ 179 (4077) ■ Qiyməti: 40 qəpik

BAKI XƏBƏR

8 OKTYABR 2019-cu il

www.baki-xeber.com

# Misirdə fironun 2 200 il yaşı olan sərdabəsi tapıldı

**Misir arxeoloqları firon IV Ptolemeyin 2 200 il yaşı olan və uzun müddətdir axtarılan sərdabasını tapıblar. "Milli.Az" xəbər verir ki, qədim sərdaba tikinti işçilərinin şimaldakı Sohag rayonunun Tama qəsəbəsində yerləşən Kom Şakav kəndində apardıqları qazıntı zamanı təsadüfən aşkar edilib.**



Misirin Qədim Abidələr Nazirliyinin məlumatına görə, arxeoloqların həmin sərdabanın firon IV Ptolemeyə aid olması barədə rəyindən sonra ərazidə tikinti işləri dayandırılıb. Belə ki, alimlər burada Ptolemey sülaləsinin dördüncü fironunun təsviri və qədim Misir əlifbası ilə yazılmış mətn olan lövhələri aşkar ediblər. Lakin onlar hələ sərdabanın şimal-cənub divarlarını üzə çıxara bilməyiblər. Məbədin şərq-qərb divarlarının üzərində isə hər il Nil çayının daşması üçün dua edilən Hapi tanrısının quşların və çiçəklərin əhatəsində təsviri aşkar edilib. IV Ptolemeyin eramızdan əvvəl 221-204-cü ildə Misir fironu olduğu ehtimal edilir. Onun hökmranlığı o qədər də uğurlu olmayıb və fironun dövləti idarə etməkdən daha çox, incəsənətə meyilli olduğu bildirilir. Tapılan qədim mətndə qeyd olunur ki, IV Ptolemeyin dövründə ən böyük gəmi inşa edilib. "Tessarakonteres" (qırx) adlanan bu gəminin 40 avar bölməsi və 4 min avarçəkəni olub. Qeyd olunub ki, bu sərdabanın aşkar edilməsi Misirdə arxeoloji tapıntılar seriyasının davamıdır. 2004-cü ildə Almaniya və Misir arxeoloqlarından ibarət qrup Nil çayının deltasında qranit lövhə tapıblar. Bu lövhə təsdiq edib ki, Yuli təqviminə keçilməsinə təşəbbüs Yuli Sezardan hələ 200 il öncə göstərilib. Müasir Əz-Zəkəzik şəhəri yaxınlığındakı tarixi Tell-Bəstə (qədim Bubastis) rayonunda tapılmış bu daş sütun hökmdar III Ptolemey Evergetin (e.ə. III əsr) hökmranlığı dövrünə aiddir. Daş lövhədə qədim yunan dilində hökmdarın gördüyü işləri vəsf edən mədhnamə həkk olunub. Bundan başqa, bu yaxınlarda Giza Kom Ombo sfinksinin yaxınlığındakı Dahşur nekropolunda Ptolemey sülaləsinin hökmranlığı (e.ə. 323-30-cu illər) dövrünə aid səkkiz mumiya da tapılıb. Asvan yaxınlığında yerləşən qədim məbəddə isə Sobek timsah tanrısının heykəli tezliklə turistlərin gəldiyi Şarm-əl-Şeyx qəsəbəsindəki muzeyə qoyulacaq. Açılışı çoxdan gözlənilən Böyük Misir Muzeyinin eksponatları da tamamlanmaq üzrədir və onun 2020-ci ilin ortalarında paytaxt Qahirədə qapılarını ziyarətçilərə açması nəzərdə tutulub.

## Elan

Şəki rayonu, Kiş kənd sakini Adıgözəlov Qurbanəli Hidayət oğlunun adına verilmiş JN: 1166 saylı torpağa mülkiyyət hüququna dair dövlət aktı və 4040013003407-10301 saylı, Kiş kəndində yerləşən fərdi yaşayış evinin reyestrdən çıxarışı itdiyi üçün etibarsız sayılır.

Şamquliyeva Fatimə Xəqani qızına verilmiş A10731 seriyalı şəhadətnamə itdiyi üçün etibarsız sayılır.
Günarə Əliyeva adına musiqi məktəbi

### "Bakı Yüksək Gərginlikli Elektrik Avadanlıqları" ASC səhmdarlarının nəzərinə!

Azərbaycan Respublikasının Mülki Məcəlləsinə və "Bakı Yüksək Gərginlikli Elektrik Avadanlıqları" ASC-nin Nizamnaməsinə müvafiq olaraq, 8 noyabr 2019-cu il, saat 16:00-da səhmdarların növbədənkənar ümumi yığıncağı keçiriləcək.

Yığıncağın gündəliyinə müzakirə üçün aşağıdakı məsələlər daxil edilir:

1. Müşahidə şurasının tərkibinin və sədrinin seçilməsi.
2. Cəmiyyətin İdarə Heyətinin tərkibinin və sədrinin seçilməsi .

Əlaqə telefonu: (012) 514-46-20. (055) 213-58-36.
Ünvan: Bakı şəhəri, 2-ci Əhməd Rəcəbli küçəsi 12, "Royal" otelin konfrans zalı.
"BYGEA" ASC-nin İdarə Heyyəti

Məmmədov İnqilab Faxrət oğlundan vərəsəliklə İsmayılova Həqiqət Qara qızının (JN-26875) adına torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə itdiyi üçün etibarsız sayılır (ünvan: Bakı şəhəri, Suraxanı rayonu, Zığ qəsəbəsi, Əmircan-Hövsan yolunun sağ tərəfində yerləşən torpaq sahəsi).

## Alimlərdən birdəfəlik çay paketlərilə bağlı xəbərdarlıq...

**Kanadanın Makqill Universitetinin alimləri birdəfəlik çay paketlərinin dəmlənməsi zamanı suya milyardlarla mikro və nanoplastiklərin düşdüyünü bildiriblər.**

"Axar.az" bildirir ki, bu barədə "Environmental Science & Technology" jurnalı yazıb. Bildirilib ki, təkcə bir paketdə təxminən 11.6 milyard mikroplastik və 3.1 milyard nanoplastik olur. Alimlərin sözlərinə görə, bu rəqəm digər içki və yeməklərdə tapıla biləcək miqdardan daha çoxdur. Alimlər paketdən ayırdıqları çayı 5 dəqiqə dəmlədikdən sonra onu mikroskopla nəzərdən keçiriblər. Məlum olub ki, suda olan nanohissələr dəm zamanı yaranmağa başlayır.







**Qoç** - Səhər saatlarında yaxın ətrafınızdakı insanlardan bir neçəsi ilə anlaşılmazlıq yarana bilər. Normal dialoq istəyirsinizsə, psixoloji cəhətdən çevik olun. Diplomat kimi davranın. Tələsik qərar verməyin.



**Buğa** - İstənilən yeniliklər və eksperimentlər üçün əla gündür. Yeni müttəfiqlər tapacaqsınız. Hətta, əvvəllər tərəfinizdə olmayan insanlar belə arqumentlərinizin səhihliyini dana bilməyəcəklər.



**Əkizlər** - Günün ilk yarısı effektiv və əlverişlidir. Fiziki və emosional tarazlığı bərpa edin. Yaxın ətrafınızdakı insanlarla qeyri-rəsmi şəkildə təmaslara üstünlük verin. Günün ikinci yarısında işgüzar danışıqlar pis nəticə verməyəcək.



**Xərçəng** - Tərəfdaşlarla ünsiyyətə xüsusi diqqət ayırın. Yaxın ətrafınızdakı insanlarla stabil təmaslar irəliləyişə əlavə təkan verəcək. Yaradıcılıq və karyera məsələlərində emosional addımlar atmayın.



**Şir** - İntellektual iş üçün uğurlu gündür. Gəldiyiniz nəticələr paradoksal da olsa, doğrudur. Müşahidələriniz sizi aldatmayacaq. Uzun müddətdən bəri dil tapa bilmədiyiniz adamla bu gün razılığa gələ biləcəksiniz.



**Qız** - Genişmiqyaslı layihəyə, önəmli məsələyə başlamaq üçün əlverişli zaman deyil. Yarımçıq işlər ballasta, izafi yükə çevrilməməlidir. Günün ikinci yarısında hesabatları tərtiq edəndə diqqətli və sayıq olun.



**Tərəzi** - Hadisələrlə zəngin gündür. İşlə bağlı məsələlər sizdən səfərə çıxmağı tələb edəcək. Müxtəlif dövlət qurumları və təşkilatlarının mənsubları ilə təmaslar aktiv olacaq. Axşam saatlarında adrenalin axtarışlarına çıxmayın.



**Əqrəb** - Xasiyyətinizin ən yaxşı məqamları bu gün daha qabarıq görünəcək. Bu gün hamının xoşuna gələcəksiniz. Lakin bu gün rəğbət bəslədiyiniz adamların bəzilərinin az sonra sizə xəyanəti istisna deyil.



**Oxatan** - Günün ilk yarısında əhvalınız yaxşı olacaq. Qüvvələrinizdən bədgüman olmayın, bədbinliyə qapılmayın. Şərtlər əlverişlidir. Situasiyanı normal dəyərləndirməyə çalışın.



**Oğlaq** - Ambisiyalarınızı açıqlamayın, cəmiyyətdə bərqərar olmuş qaydalar və qanunlar çərçivəsindən kənara çıxmayın. Hansısa olay sizdə kəskin narazılıq yaradarsa, emosiyalarınızın izharına tələsməyin.



**Dolça** - Maraqlı və pozitiv gündür. Uzaqdan yaxşı xəbərlər alacaqsınız. Tərəfdaq və ya şərikdən cazibədar təklifin alınması istisna deyil. Günün ikinci yarısı təhsil, biliklərin artırılması, təcrübənin genişləndirlməsi üçün əlverişlidir.



**Balıqlar** - Günün ilk yarısında situasiya yaxın ətrafınızdakı insanlarla münasibətlərinizdən asılıdır. Müzakirə edilən məsələlərlə bağlı fikirlərinizi paylaşanda diqqətli olun. Qarşı tərəfin mövqelərini nəzərə alın.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## NASA astronavtları açıq kosmosda işləri başa çatdırıblar

**ABŞ-ın Aeronavtika və Kosmik Tədqiqatlar Milli Agentliyinin (NASA) Beynəlxalq Kosmik Stansiyada fəaliyyət göstərən astronavtları Kristina Kuk və Endryu Morqan stansiyanın batareyalarını dəyişmək üçün açıq kosmosda apardıqları işləri başa çatdırıblar.**

"AZƏRTAC" bildirir ki, onların əməliyyatı və stansiyaya qayıtması prosesi NASA-nın saytında canlı yayımlanıb. NASA-nın məlumatında bildirilir ki, stansiyanın ətrafında - açıq kosmosda aparılan əməliyyat nəzərdə tutulan 6,5 saatdan çox - 7 saata başa çatdırılıb. Kosmik fəzada aparılan işləri stansiyadan astronavt Cessika Meyr idarə edib. Qeyd olunub ki, astronavtlar stansiyaya hidrogen-nikel elementlərinin yerinə iki yeni litium-ion batareyalarını quraşdırıblar. Yeni enerji elementlərinin quraşdırılmasını davam etdirmək üçün onlar daha üç dəfə - oktyabrın 16-da, 21-də və 25-də açıq kosmosa çıxacaqlar. Hazırda Beynəlxalq Kosmik Stansiyada NASA-nın astronavtları Kristina Kuk, Endryu Morqan və Cessika Meyrlə yanaşı, rusiyalı kosmonavtlar Aleksandr Skvortsov və Oleq Skripoçka, habelə Avropa Kosmik Agentliyinin təmsilçisi Luka Parmitano (İtaliya) fəaliyyət göstərirlər.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*
Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*
*e-mail: azer22@mail.ru*

Reyestr № 0106-P219-45846
Qəzet həftədə 5 dəfə çıxır.
(Bazar və bazar ertəsindən başqa).
«BZ»-də çap olunur.
*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.